# Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi (ECSOFT)

## Açıq hökumətin təşviqinə dair

## 2020 - 2022-ci illər üçün Milli Fəaliyyət Planının icrası

# *MONİTORİNQ HESABATI*

***07 yanvar 2022-ci il***

Bu hesabat Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi (ECSOFT) çərçivəsində hazırlanıb. Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) tərəfindən maliyyələşdirilir və ABŞ-ın FHI 360 təşkilatı, İCNL, MG Consulting tərəfindən Azərbaycan Açıq Hökumət Platforması ilə əməkdaşlıqda icra olunur.

Bu hesabat Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyi (USAID) vasitəsilə və Amerika xalqının köməyi sayəsində ərsəyə gəlmişdir. Nəşrin məzmunu onu hazırlayan ekspert qrupuna məxsusdur və heç bir halda USAID və ya Amerika Birləşmiş Ştatları Hökumətinin mövqeyini əks etdirmir.

Bu hesabatda həmçinin, ECSOFT layihəsi çərçivəsində Sabit Bağırovun rəhbərlik etdiyi ekspert Qrupunun "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının 2-ci istiqamətinin monitorinqi"nin nəticələrindən istifadə edilib.

Azərbaycan Açıq Hökumət Platforması bu hesabatın işlənib hazırlanmasında verdikləri töhfəyə görə ECSOFT, ekspertlər, o cümlədən hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinə, informasiya sorğularını cavablandıran dövlət qurumlarına minnətdarlığını bildirir.

**Əliməmməd Nuriyev**

Layihənin ekspert qrupunun rəhbəri
Açıq Hökumət Platformasının koordinatoru,
"Konstitusiya" Araşdırmalar Fondunun prezidenti

**Layihənin ekspert qrupu**

Zaur İbrahimov

Səbinə Ələkbərova

Şahin Nəsrullayev

# MÜNDƏRİCAT


| | |
|---|---|
| *Xülasə* | 4 |
| *Monitorinqin məqsədi* | 6 |
| *Milli Fəaliyyət Planı haqqında* | 6 |
| *Monitorinq metodologiyası* | 7 |
| *Monitorinq nəticələri* | 8 |
| *Ümumiləşmiş nəticələr və tövsiyyələr* | 57 |

# Xülasə

27 fevral 2020-cı il tarixdə AR Prezidentinin müvafiq sərəncamı[1] ilə növbəti, "Açıq hökumətin təşviqinə dair 2020-2021-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənib. Plan 9 istiqamət üzrə qruplaşdırılmış 64 tədbiri əhatə edir.

Milli Fəaliyyət Planının təsdiqlənməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin sərəncamının 5.2-ci bəndində tövsiyyə olunub ki, tədbirlərin həyata keçirilməsinə, dəyərləndirilməsi prosesinə vətəndaş cəmiyyəti institutları cəlb olunsun. Eyni zamanda Açıq Hökumət Tərəfdaşlığının əsas prinsiplərindən biri də Fəaliyyət Planının icrasına vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsidir.

Milli Fəaliyyət Planında 2020-ci ildə 10 bənd, 2021-ci ildə isə 9 bənd üzrə fəaliyyətlərin tamamlanması nəzərdə tutulub. 45 bənd üzrə isə fəaliyyətlərin 2022-ci ildə tamamlanması nəzərdə tutulub. Monitorinq prosesində 2021-ci ilə qədər tamamlanması nəzərdə tutulan tədbirlərin icra vəziyyəti ilə yanaşı 2022-ci ildə yekunlaşması planlaşdırılmış fəaliyyətlərin icrası ilə bağlı dinamika da qiymətləndirilib.

Monitorinq hesabatına həmçinin, Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi (ECSOFT) çərçivəsində həyata keçirilən "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 2-ci istiqamətinin (Maliyyə şəffaflığının təmin edilməsi sahəsində tədbirlər) monitorinq nəticələri də daxil edilib.

**Monitorinqə əsasən Milli Fəaliyyət Planında nəzərdə tutulmuş fəaliyətlərin orta icra göstəricisi 73 % olmuşdur.**

Monitorinqin nəticələrinə əsasən hökumət maliyyə şəffaflığının təmin edilməsi ilə bağlı fəaliyyətlərin həyata keçirilməsində pozitiv dinamika nümayiş etdirir. Bu sahədə mövcud praktikanın yaxşılaşdığını qeyd edə bilərik.

Azərbaycanda 2019-cu il 4 mart tarixindən COVİD-19 pandemiyası ilə əlaqədar Xüsusi Karantin Rejimi tətbiq olunub. Həmçinin 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Ermənistan Respublikasının hərbi təxribatlarına cavab olaraq işğal altında olan ərazilərini azad emtək üçün hərbi əməliyyatlara başlamalı olmuşdur. Hərbi əməliyyatlar 9 noyabr 2020-ci il tarixə qədər davam etmişdir. COVİD-19 pandemiyası və hərbi əməliyyatlar MFP-nin icrasına neqativ təsir göstərmişdir. Bununla əlaqədar bir sıra tədbirlərin icrası ləngimişdir.

Nəzərəçarpan irəliləyişlər kimi Ombudsmana müraciətlər üçün vahid qaynar xəttin yaradılmasını, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin keçirilməsi ilə bağlı tədbirləri, elektron notariat və məhkəmə qərarlarının icrası ilə bağlı xidmətlərin elektronlaşmasını, kommunal xidmətlərdə şəffaflığın, hesabatlılığın və müştəri məmnunluğunun artırılmasını, "Ağıllı kənd" layihəsinə start verilməsini və maliyyə şəffaflığının artırılması üzrə fəaliyyətləri qeyd etmək olar.

[1] http://www.e-qanun.az/framework/44619

Qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatının sadələşdirilməsi, elektronlaşdırılması və təkmilləşdirilməsi, QHT-lərin xarici qrantlara çıxışının asanlaşdırılmasıyla bağlı dövlət orqanları, Açıq Hökumət Platforması və digər QHT-lər tərəfindən təkliflər hazırlanıb. Hökumət bu məsələlərlə bağlı vətəndaş cəmiyyəti ilə müzakirələr aparıb. 2020-ci ildə COVİD-19 pandemiyası və müharibə bu prosesin yekunlaşmasını ləngidib.

Parlamentin bu il keçirilən payız sessiyasında bu məsələlərin müzakirə olunması və konkret qərarların qəbul edilməsi gözlənilirdi. Lakin bu baş vermədi və parlamentin 2022-ci il üçün payız sessiyasında bu məsələlərin müzakirəsi gözlənilir. Layihənin ekspert qrupunun Ədliyyə Nazirliyi və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya ilə görüşlərində qanunvericiliyə dəyişikliklərlə bağlı təkliflərin hazırlandığı qeyd edilib. Təkliflərin konkret detalları barədə məlumat verilməyib. Qeyd edilib ki, əlaqədar dövlət orqanları arasında müzakirələr davam etdirilir.

İnformasiya açıqlığının genişləndirilməsi, bu sahədə mövcud qanunvericilik və praktikanın təkmilləşdirilməsiylə bağlı işlər yekunlaşmayıb. Bu istiqamətdə, qanunvericiliyə əlavələr və dəyişikliklərlə bağlı dövlət orqanları müzakirələr aparıb, təkliflər hökumətə təqdim edilib. Bu təkliflər əsasında qanunvericiliyə dəyişikliklər edilməsi və qərarların qəbulu ləngiyir. 2021-ci ilin sonuna qədər bu istiqamətdə hökumət qərarlarının veriləcəyi gözlənilir.

İctimai iştirakçılığın genişləndirilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanları yanında İctimai Şuraların yaradılması prosesinin sürətlənməsini və əldə olunmuş nəticələri irəliləyiş kimi qeyd etmək olar.

Bunlarla yanaşı özəl sektorda şəffaflığın və hesabatlılığın artırılmasına, korrupsiya risklərinin müəyyən edilməsinə, təhlilinə və qarşısının alınmasına dair metodologiyanın praktikada tətbiqi ilə bağlı proses də yekunlaşmamış qalıb.

Monitorinqin nəticələri göstərir ki, Nazirlər Kabineti MFP-də nəzərdə tutulan tədbilərin həyata keçirilməsi ilə bağlı dövlət orqanlarının irəli sürdüyü təkliflərin analizi və bunun əsasında qərarların qəbulu prosesində ləngiyir. Bu istiqamətdə prosesin sürətlənməsi üçün əlavə səylərə ehtiyac var.

Həmçinin, MFP-nin icrasına nəzarəti həyata keçirən Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya Açıq Hökumət Platforması və vətəndaş cəmiyyətinin prioritet hesab etdiyi sahələr üzrə (informasiya açıqlığı və hesabatlılığın gücləndirilməsi, vətəndaş cəmiyyəti üçün əlverişli mühit yaradılması, korrupsiya risklərinin qiymətləndirilməsi sisteminin yaradılması) fəaliyyətlərin həyata keçirilməsinin sürətləndirilməsi və qərarların qəbuluna nəzarəti daha da gücləndirməlidir. Eyni zamanda bu məsələlərdə ictimai iştirakçılıq daha da genişləndirilməlidir.

Açıq Hökumət Platformasının keçmiş təcrübəsinə əsasən qeyd etmək olar ki, MFP üzrə 2022-ci ilin ikinci yarısında konkret qərarların qəbulu üzrə proses daha da sürətlənəcək. Təcrübə göstərir ki, MFP üzrə tədbirlərin həyata keçirilməsi ilə bağlı icraçı qurumlar tərəfindən hazırlanan təklif və qərarların hökumət səviyyəsində razılaşdırılması prosesi ləngiyir və nəzərdə tutulmuş müddətlərə əməl etmək mümkün olmur. Buna görə də, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın əlaqələndirici rolu daha da güclənməlidir.

## I. MONİTORİNQİN MƏQSƏDİ

Monitorinqin məqsədi bütün maraqlı tərəflərin hər birini Milli Fəaliyyət Planı üzrə nəzərdə tutulan tədbirlərin icrasındakı irəliləyişlər və çətinliklərlə bağlı müstəqil qiymətləndirmə ilə təmin etməkdir. Monitorinq qrupu Milli Fəaliyyət Planınında nəzərdə tutulan bəndlərin icrasında olan inkişaf və zəiflikləri təsvir edib və tövsiyyələri müəyyən edib.

## II. MFP HAQQINDA

27 fevral 2020-ci il tarixdə AR Prezidentinin müvafiq sərəncamı ilə növbəti, "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənib. Plan 9 istiqamət üzrə qruplaşdırılmış 64 tədbiri əhatə edir (Cədvəl 1).

Milli Fəaliyyət Planının təsdiqlənməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin sərəncamının 5.2-ci bəndində tövsiyyə olunub ki, tədbirlərin həyata keçirilməsinə, dəyərləndirilməsi prosesinə vətəndaş cəmiyyəti institutları cəlb olunsun. Eyni zamanda Açıq Hökumət Tərəfdaşlığının əsas prinsiplərindən biri də Fəaliyyət Planının icrasına vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsidir.

***(Cədvəl 1)***

| ***Tədbirlərin sayı*** | ***2020*** | ***2021*** | ***2022*** |
|---|---|---|---|
| ***10*** | | | |
| ***9*** | | | |
| ***45*** | | | |

## *III. MONİTORİNQ METODOLOGİYASI*

Milli Fəaliyyət Planının monitorinq metodologiyası "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə üzrə İctimai Birliyinin sifarişi ilə "Transperensi İnterneşnl-Rusiya" Antikorrupsiya Təşəbbüsləri və Tədqiqatları Mərkəzinin ekspertləri tərəfindən hazırlanıb.

Metodologiya MFP üzrə nəzərdə tutulan hər bir tədbirin icra vəziyyətini üç növ mənbədən alınan informasiya əsasında qiymətləndirilməsi üçün hazırlanmışdır:

**1)** MFP-də nəzərdə tutulan hər bir tədbirin icra vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə açıq mənbələrin (xəbərlər, rəsmi hesabatlar və digər ictimaiyyətə açıq informasiyalar) analizi aparılmışdır. Metodologiyaya əsasən ekspertlər hər hansı irəliləyişin olması barədə sübutlara əsasən müvafiq bal veriblər. "Açıq mənbələrdən əldə edilən məlumatlar"a görə qiymətləndirmə zamanı heç bir irəliləyişin olmaması - ***0 bal,*** müəyyən irəliləyişin olması haqqında sübutlar-***1 bal,*** konkret fəaliyyətin həyata keçirildiyi ilə bağlı aydın sübutlar – ***2 balla*** qiymətləndirilir.

**2)** Mümkün hallarda, dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi məqsədi ilə sorğular göndərilmişdir. Alınan məlumatlar əsasında, tərəqqi dərəcəsi ***0-dan 2-yə kimi ballar ilə*** qiymətləndirilib. Cavab alınmaması və yaxud neqativ cavab alınmasına görə - ***0 bal***, müəyyən irəliləyişin olması haqqında sübutlar-***1 bal,*** konkret fəaliyyətin həyata keçirildiyi ilə bağlı aydın sübutlar – ***2 balla*** qiymətləndirilir.

**3)** QHT-lərin cavablandırdığı sorğulardan əldə olunan məlumatlara görə də analoji qiymətləndirmə qaydası nəzərdə tutulub.

Monitorinq prosesində layihənin ekspert qrupu İqtisadiyyat Nazirliyi və onun tabeçiliyində olan, Dövlət Vergi Xidməti, Əmlak Məsələləri Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, həmçinin, Ədliyyə Nazirliyi, Baş Prokurorluq, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın əməkdaşları ilə görüşlər keçirib, MFP-nin icra vəziyyətini müzakirə ediblər.

Monitorinq prosesində layihənin ekspert qrupu MFP-nin 48 bəndi üzrə informasiya sorğusu vermişdir.

# IV. MONİTORİNQİN TAPINTILARI

## MFP-NİN BƏNDLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ

**1-ci istiqamət (Korrupsiyanın qarşısının alınması və dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər)**

**İstiqamət üzrə qiymətləndirmə: 42 bal/72%**

**1.1. Qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, korrupsiya risklərinin müəyyən edilməsinə, təhlilinə və qarşısının alınmasına dair metodologiyanın hazırlanması:**

**İcra edir:** Baş Prokurorluq, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Metodologiyanın hazırlanması və ondan istifadə imkanları

Monitorinq prosesi zamanı Baş Prokurorluq informasiya sorğusuna cavabında bildirmişdir ki, 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının 1.1-ci bəndinin icrası ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən “Azərbaycan Respublikası prokurorluq orqanlarında korrupsiya risklərinin idarə edilməsi” metodologiyası hazırlanıb. Qeyd olunan vəsaitdə korrupsiya risklərinin yaranmasına səbəb olan faktorlar, risklərin idarə edilməsi, təhlili, həmin sahədə qabaqcıl beynəlxalq təcrübənin nəzərə alınması və s. mühüm məsələlər öz əksini tapmışdır. Vəsaitin hazırlanması zamanı Albaniya, Serbiya və Cənubi Koreya kimi dövlətlərin təcrübəsindən istifadə olunmuşdur. Sözügedən metodologiya Fəaliyyət Planına uyğun olaraq nəzərdən keçirilməsi üçün Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasına göndərilib.

Monitorinq hesabatının yekunlaşdığı, 29.11.2021-ci il tarixə qədər Metodologiya Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyanın saytında yerləşdirilməmişdir. A ç ı q Hökumət Platformasına üzv olan QHT-lər bildiriblər ki, bu sənədin hazırlanması barədə məlumatlıdırlar, Baş Prokurorluq nümayəndələri bununla bağlı layihənin ekspert qrupu ilə keçirilən görüşdə, həmçinin yeni antikorrupsiya milli fəaliyyət planının hazırlanması ilə bağlı QHT-lərlə keçirilən görüşdə məlumat veriblər[2].

Bununla yanaşı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2021-ci ildə “Özəl sektorda antikorrupsiya standartları” adlı vəsait[3] hazırlanmış, nəşr etdirilmiş və Baş Prokurorluğun saytında yerləşdirilmişdir. Bu vəsait ölkəmizdə biznes mühitinin inkişafına dəstək naminə özəl sektor subyektlərinə göndərilməsi məqsədi ilə 26 aprel 2021-ci il tarixdə Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasına təqdim edilib.

Bəndi üzrə qiymətləndirmə: **4 bal**

Dövlət qurumları tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planlarının hazırlanması, həmin tədbirlər planlarının icrası barədə hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi

[2] http://antikorrupsiya.gov.az/view.php?lang=az&menu=3&id=506
[3] https://genprosecutor.gov.az/storage/pages/QaowfAc1YmxbqNhUQyNPFHCsp3Fdb7qiSD5JvKpg.pdf

**İcra edir:** Mərkəzi icra hakimiyyəti orqanları və dövlət adından yaradılmış publik hüquqi şəxslər
**Tövsiyə edilir:** Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**İcra müddəti:** 2020-2022-ci il
**İndikatorlar:** Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilən hesabatlar

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyadan soruğuya cavab olaraq bildirilib ki, bütün mərkəzi icra hakmiyyəti orqanları və dövlət adından yaradılmış publik hüquqi şəxslər korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planları hazırlayıblar. Bu Planlar müvafiq əmrlərlə təsdiq olunub və icrası barədə hesabatlar hər il 31 dekabr tarixinə qədər Komissiyaya təqdim edilir. Komissiya bu hesabatlar əsasında özünün illik hesabatını hazırlayır. QHT ekspertləri bu barədə məlumatlıdırlar. Layihənin ekspert qrupu İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi,Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi və Komissiya ilə aparılan müzakirələrdə bu illik tədbirlər planı və onun əsasında hazırlanmış hesabatlarla tanış olublar. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya illik hesabatları saytında yerləşdirib[4].

**1.2** Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

Korrupsiyanın ümumilikdə və sahələr üzrə səbəbləri, xüsusiyyətləri, səviyyəsinin öyrənilməsi məqsədilə ixtisaslaşdırılmış tədqiqatların və rəy sorğularının həyata keçirilməsi üçün bu sahədə ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi

**İcra edir:** Mərkəzi icra hakimiyyəti orqanları və dövlət adından yaradılmış publik hüquqi şəxslər
**Tövsiyə edilir:** Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Dəstəklənmiş layihələr

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2020-ci ildə Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyası ilə birlikdə "Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində tədqiqatların aparılması və tədbirlərin keçirilməsi" mövzusunda Qrant müsabiqəsi elan edib. Qrant müsabiqəsinin nəticələrinə əsasən 5 QHT-nin layihəsi maliyyələşdirilib və onlara 46500 manat qrant vəsaiti ayrılıb[5].

Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya 2021-ci ildə kommunal sahədə rəy sorğusunun keçirilməsi məqsədilə qrant müsabiqəsi elan edib[6]. Qrant müsabiqəsində "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İB qalib gəlib. "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İB tərəfindən kommunal sektorda təchizatçı qurumların fəaliyyətinin vətəndaşlar və biznes subyektləri tərəfindən dəyərləndirilməsi məqsədilə paytaxt Bakı şəhəri, Sumqayıt şəhəri, Abşeron rayonu ərazisində ictimai rəy sorğusu keçirilib və nəticələri Komissiyaya təqdim olunub.

***1.3.*** Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

**1.4.** Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim olunması ilə əlaqədar tədbirlərin həyata keçirilməsi

---

[4] http://www.commission-anticorruption.gov.az/view.php?lang=az&menu=49
[5] http://cssn.gov.az/documents/Korrupsiyaya%20qar%C5%9F%C4%B1%20m%C3%BCbariz%C9%99%20%C3%BCzr%C9%99%20Komissiyas%C4%B1-Maliyy%C9%99l%C9%99%C5%9F%C9%99n%20layih%C9%99l%C9%99r.pdf
[6] http://www.commission-anticorruption.gov.az/view.php?lang=az&menu=3&id=501

**İcra edir:** Nazirlər Kabineti, Ədliyyə Nazirliyi
**Tövsiyə edilir:** Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Həyata keçirilmiş tədbirlər

2000-ci ildə qəbul edilmiş "Dövlət qulluğu haqqında" qanunun 18-ci maddəsinin 18.0.9-cu bəndinə görə, dövlət qulluqçuları hər il qulluq etdikləri orqanın rəhbərinə öz gəlirləri və əmlak vəziyyəti haqqında maliyyə hesabatı verməli, orda əlavə gəlirlərin mənbəyini, növünü və məbləğini göstərməlidirlər.

2004-cü il, yanvarın 13-də qəbul edilmiş "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun 5-ci maddəsinə görə, vəzifəli şəxslər hər il mənbəyini, növünü və məbləğini göstərməklə öz gəlirləri barədə, vergitutma obyekti olan əmlakları barədə, kredit təşkilatlarındakı əmanətləri, qiymətli kağızları və digər maliyyə vəsaitləri barədə, şirkətlərin, fondların və sair təsərrüfat subyektlərinin fəaliyyətində səhmdar və ya təsisçi kimi iştirakı, bu müəssisələrdə öz mülkiyyət payları barədə, şərti maliyyə vahidinin beş min misli miqdarından yuxarı olan borcu barədə, şərti maliyyə vahidinin min mislindən yuxarı maliyyə və əmlak xarakterli digər öhdəlikləri barədə məlumatları müəyyən edilmiş qurumlara təqdim etməlidirlər.

"Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları" isə 2005-ci il iyunun 24-də təsdiqlənib. Həmin sənəddə gəlir bəyannamələri sisteminin tətbiq istiqamətləri və qaydaları müəyyənləşdirilib. Ölkə prezidentinin 2005-ci il 9 avqust tarixli fərmanı ilə bəyannamə formasının tərtibi üçün Nazirlər Kabinetinə 2 ay vaxt verilib. Bununla belə, 16 ildir ki, Nazirlər Kabineti tərəfindən Bəyannamə forması təsdiq edilməyib.

Nazirlər Kabinetinin 2020-ci ilə dair hesabatında bildirilib ki, vəzifəli şəxslər tərəfindən müvafiq bəyannamələrin təqdim edilməsi barədə normativ hüquqi akt layihələri hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir. Sənəddə qeyd olunub ki, ötən müddətdə baş verən dəyişikliklər nəzərə alınmaqla qeyd olunan layihələrdə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya maliyyə xarakterli məlumatları təqdim edən vəzifəli şəxslərin siyahısı yenidən işlənilib, maliyyə bəyannaməsinin məzmununa daxil edilən məlumatların dairəsi dəqiqləşdirilib, həmçinin maliyyə xarakterli məlumatların təqdim edilməsi müddətləri və bu məlumatların təqdim edilməsinə nəzarətlə bağlı yeni tənzimləmələr və s. nəzərdə tutulub. Layihələrdə, eyni zamanda vəzifəli şəxslərin maliyyə xarakterli məlumatlar haqqında bəyannaməsinin təqdim edilməsi qaydaları və forması da müəyyən edilib[7].

Layihə ekspert qrupunun Ədliyyə Nazirliyi ilə keçirdiyi görüşdə bildirilib ki, Nazirlik tərəfindən "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi qaydaları", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Dövlət qulluğu haqqında" qanunlara dəyişikliklər layihəsi hazırlanıb və Nazirlər Kabinetinə təqdim olunub. QHT-lər bu barədə məlumatlıdırlar. Lakin, bu məsələlərin QHT-lər və müstəqil ekspertlərlə müzakirələri keçirilməyib.

***1.4.*** Bəndi üzrə qiymətləndirmə: ***2 bal***

**1.5.** Dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı elektron-təlim kursunun təşkili.

[7] https://report.az/daxili-siyaset/maliyye-xarakterli-melumatlari-teqdim-eden-vezifeli-sexslerin-siyahisi-yeniden-islenilib/

**İcra edir:** Dövlət İmtahan Mərkəzi
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Elektron-təlim kursunun fəaliyyəti.

Monitorinq prosesi zamanı Dövlət İmtahan Mərkəzi informasiya sorğusuna cavabında bildirmişdir ki, dövlət qulluğu ilə əlaqədar müxtəlif mövzularda təlim modulları hazırlanıb və təlimlər təşkil edilib. Bununla yanaşı, Mərkəz tərəfindən dövlət qulluğunda rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarə edilməsi üzrə 10 təlim modulu və onların proqramları hazırlanıb. Eyni zamanda "Dövlət qulluğunda etik davranış qaydalarının tətbiqi məsələləri", "Korrupsiyaya qarşı mübarizə", Etik qaydalar və antikorrupsiya" və "Maraqların toqquşmasının qarşısının alınması" mövzularında təlim modulları hazılanıb. Bu modullar üzrə Energetika Nazirliyi və Dövlət Miqrasiya Xidməti əməkdaşlarına təlimlər keçirilib.

Həmçinin, Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının sədrinin 09.04.2021-ci il tarixdə KİV-də verdiyi müsahibədə bu məlumatlar qeyd olunub[8].

Açıq Hökumət Platformasının üzvü olan QHT-lər bildiriblər ki, təlim modullarının hazırlanması barədə məlumatlıdırlar. Bununla belə, bu modullar üzrə keçirilən təlimlər, iştirakçıların tərkibi və sayı, nəticələrinin ölçülməsi ilə bağlı açıq mənbələrdə məlumatlar yoxdur.

Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya 18.10.2021-ci il tarixdə dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı elektron-təlim kurslarının təşkili üzrə qrant müsabiqəsi elan edib. Müsabiqənin nəticələrinə əsasən qalib gəlmiş QHT-nin 13 dövlət qurumunun 260-dan çox əməkdaşına təlimlər keçməsi nəzərdə tutulub[9].

**1.5.** Bəndi üzrə qiymətləndirmə: ***4 bal***

**1.6.** Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi

**İcra edir:** Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Dəstəklənmiş layihələr

Platforma Dövlət Statistika Komitəsi və Azərbaycan Dövlət Reklam Agentliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, Dövlət Turizm Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Mənzil İnşaatı üzrə Dövlət Agentliyi, Ədliyyə Nazirliyi əməkdaşlarına Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsinin (ECSOFT) dəstəyi ilə antikorrupsiya təlimləri keçirib. Təlimlər "Korrupsiya hüquqpozmaları və onlara qarşı mübarizə", "Etik davranış qaydaları" ilə bağlı iki mövzuda (sessiyada) keçirilib.

Azərbaycan Açıq Hökumət Platforması dövlət orqanlarının sifarişi əsasında Xarici İşlər Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Energetika Nazirliyi, Bakı Nəqliyyat Agentliyinin, Mənzil İnşaatı Dövlət Agentliyinin əməkdaşları üçün "Korrupsiya hüquqpozmaları və onlara qarşı mübarizə", "Etik davranış qaydaları" mövzularında təlim keçib.

Təlimlərdə dövlət orqanları və publik hüquqi şəxslərin 400-dən çox əməkdaşı iştirak edib.

---

[8] http://dim.gov.az/news/6456/?sphrase_id=1058936
[9] http://www.commission-anticorruption.gov.az/view.php?lang=az&menu=3&id=508

“Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli Fərmanı ilə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ləğv edilib və yeni qurum, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılıb[10]. Agentlikdən sorğuya cavab olaraq bildirilib ki, 2022-ci il üzrə qrant müsabiqələrinin təşkili zamanı MFP-nin 1.6-ci bəndi ilə nəzərdə tutulmuş fəaliyyətinin icrası üçün zəruri tədbirlər görüləcək.

1.6. Bəndi üzrə qiymətləndirmə: ***4 bal***

**1.7.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılma işinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzdində fəaliyyət göstərən “161 - qaynar xətt” əlaqə mərkəzinin texniki və insan resursu imkanlarının genişləndirilməsi, vahid elektron müraciət portalının (161.az) yaradılması

**Tövsiyə edilir:** Baş Prokurorluq
**İcra müddəti:** 2020–2022-ci illər
**İndikatorlar:** “161 - qaynar xətt” əlaqə mərkəzinin imkanlarının genişləndirilməsi və portalın yaradılması ilə bağlı görülən tədbirlər

Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzdində fəaliyyət göstərən “161 - qaynar xətt” əlaqə mərkəzinin texniki imkanlarının genişləndirilməsi məqsədilə müvafiq işlər görülüb. Xüsusi vurğulanmalıdır ki, həyata keçirilmiş tədbirlər nəticəsində müvafiq sistem daha da təkmilləşdirilib. Belə ki, hazırda “161- qaynar xətt”ində mövcud olan bütün parametrlər (səslərin yazılması, onlara sonradan qulaq asmaq, telefon və ya qulaqcıqla istifadə, günlük hesabat, və s.) yeni yaradılmış proqramda daha təkmil, operativ və geniş formada istifadəyə verilmişdir. Bundan başqa Baş İdarədə “161-qaynar xətt” əlaqə mərkəzinin fəaliyyətinə nəzarət edən əməkdaşların sayı artırılıb, Baş Prokurorluğun www.genprosecutor.gov.az rəsmi internet səhifəsində “161-qaynar xətt” xidməti ilə bağlı müvafiq keçid yerləşdirilib.

Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının müvafiq bəndində nəzərdə tutulmuş tədbirin icra müddəti 2020-2022-ci illəri əhatə etdiyindən hazırda vahid elektron müraciət portalının (161.az) yaradılması istiqamətində zəruri işlərin görülməsi davam etdirilir.

**1.7.** Bəndi üzrə qiymətləndirmə**:** **4 bal**

**1.8.** Vətəndaşların müraciət imkanlarının genişləndirilməsi və müraciətlərə baxılma işinin operativliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinə (Ombudsmana) müraciətlər üçün vahid qaynar xəttin yaradılması.

**İcra edir:** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Qaynar xəttin yaradılması ilə əlaqədar tədbirlər.

2020-ci il sentyabr ayında Ombudsmanın mövcud iki qaynar xətti bir mərkəzdə birləşdirilməklə və müasir informasiya texnologiyalarından istifadə edilməklə 916 nömrəli vahid Çağrı Mərkəzi yaradılıb. Çağrı Mərkəzinə müraciət üçün şəhər nömrələrindən 916, respublikanın

[10] https://president.az/articles/51178

regionlarından və mobil nömrələrdən isə 012-916 yığmaqla zəng etmək olar. Danışıqlar qeydə alınır və məlumat bazasına daxil edilməklə elektronlaşdırılır ki, bu da əvvəlki dövrdən fərqli olaraq, telefonla müraciət olunduqdan sonra yazılı müraciət istənilməsinə ehtiyac yaratmır[11].

Ombudsman təsisatının dəstəyi və iştirakı ilə bir sıra orta məktəblərdə "Gender zorakılığı - cəmiyyətimizin faciəsi" adlı layihə çərçivəsində geniş tədbirlər təşkil edilmiş, müzakirələr aparılmış, həmçinin Ombudsmana müraciət etmək qaydaları və Ombudsmanın 916 Çağrı Mərkəzi barədə ətraflı məlumat verilmişdir.

**1.8.** Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

**1.9.** Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması

**İcra edir:** Mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər
**İcra müddəti:** 2020-2022
**İndikatorlar:** Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı görülmüş işlər barədə məlumatların rəsmi internet səhifələrində yerləşdirilməsi

Dövlət adından yaradılmış publik hüquqi şəxslərdən Bakı Nəqliyyat Agentliyi, İcbari Sığorta üzrə Dövlət Agentliyi, Azərbaycan Dövlət Reklam Agentliyinin, mərkəzi icra hakimiyyəti orqanlarından Dövlət Statistika Komitəsi və Dövlət Turizm Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Xarici İşlər Nazirliyi, Energetika Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Dövlət Agentliyi əməkdaşlarına Azərbaycan Açıq Hökumət Platforması tərəfindən əsasən Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsinin (ECSOFT) dəstəyi ilə etik davranış qaydaları mövzusunda təlim keçirilib. Həmçinin, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya 18.10.2021-ci il tarixdə dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı elektron-təlim kurslarının təşkili üzrə qrant müsabiqəsi elan edib. Müsabiqənin nəticələrinə əsasən qalib gəlmiş QHT-nin 13 dövlət qurumunun 260-dan çox əməkdaşına təlimlər keçməsi nəzərdə tutulub.

Dövlət İmtahan Mərkəzi hər il üçün etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri ilə əlaqədar illik hesabatında məlumatlar açıqlayır. Lakin dövlət qurumları öz səhifələrinə bununla əlaqədar məlumatları ayrı bir bölmədə açıqlamırlar. Mərkəzi icra hakmiyyəti orqanlarının illik hesabatlarında bununla əlaqədar məlumatlar əsk olunur.

**1.9.** Bəndi üzrə qiymətləndirmə: ***2 bal***

**1.10** Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi

**İcra edir: Tövsiyə edilir:** Baş Prokurorluq, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya
**İcra müddəti:** 2020-2022
**İndikatorlar:** Əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlər

[11] https://ombudsman.az/az/view/news/2022/ombudsmanin-yeni-chagri-merkezi-istifadeye-verilib

1 iyul 2021-ci il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibinin, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Ədliyyə Nazirliyinin əməkdaşlarının, eləcə də, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-ci il ərzində görülən işlər barədə və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin müzakirəsinə dair görüş keçirilib. Tədbirdə "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar 2020-ci ildə görülmüş işlər barədə məlumat verilmiş, həmçinin "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi üzrə 2021-2025-ci illər üçün Milli Fəaliyyət Planı" layihəsinin tərtib edilməsində qeyri-hökumət təşkilatlarının nümayəndələrinin fəal iştirakının vacibliyi qeyd edilib.

17-31 may 2021-ci il tarixlərdə ölkəmizin 5-ci raund pilot qiymətləndirilməsi çərçivəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) müvafiq heyəti tərəfindən dövlət orqanlarının, qeyri-hökumət təşkilatlarının, həmçinin vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə onlayn platforma vasitəsilə virtual müsahibələr keçirilib.

2021-ci il 2-4 iyun tarixlərində Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində hibrid formatda Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Korrupsiyanın qarşısının alınması, onunla mübarizə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyası (BMT BA-nın xüsusi sessiyası UNGASS 2021) keçirilmişdir. Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev bu sessiyada iştirak edib.

2021-ci il 19-23 may tarixlərində Özbəkistan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Agentliyinin rəhbəri və digər əməkdaşlarının ölkəmizə rəsmi səfəri baş tutub. Nümayəndə heyəti ilə ikitərəfli görüş zamanı qarşı tərəfə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən qanunvericilik və institusional islahatlar haqqında geniş məlumat verilmiş, səmərəli fikir mübadiləsi aparılıb. Səfər çərçivəsində Azərbaycan Respublikası Prokurorluğu ilə qeyd edilən qurum arasında əməkdaşlıq əlaqələrinin əsası qoyulmuş, gələcəkdə korrupsiyaya qarşı mübarizə sahəsində qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsinə dair ilkin razılıq əldə edilmişdir.

***1.10.*** Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

## 2-ci istiqamət (Maliyyə şəffaflığının təmin edilməsi sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: bal 57/ 81.94%**

**2.1.** Növbəti il və sonrakı üç il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinin parametrlərinə dair məlumatların Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək açıqlanması.

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti**:2020-2022-ci illər
**İndikatorlar:** Məlumatların Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi

Büdcə-öncəsi bəyanat (BÖB) sənədinin hazırlanması praktikası nisbətən yenidir, öncə

Azərbaycanda olmayıb. Bu sənəd Açıq Büdcə Sorğusunun (ABS) öncəki qiymətləndirmələrində mövcud olmayan sənəd kimi qeydə alınırdı. 2019-cu ildən başlayaraq Maliyyə Nazirliyi rəsmi səhifəsində bu sənədi yerləşdirir.[12]

2021-ci il və sonrakı 3 il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinin əsas parametrləri Maliyyə Nazirliyinin rəsmi səhifəsində 3 sentyabr 2020-ci ildə yerləşdirilib[13]. Sənəd 15 səhifədən ibarətdir və əsas makroiqtisadi göstəriciləri, habelə 2021-ci il və orta müddətli dövrdə büdcə-vergi siyasətinin əsas istiqamətlərini, eləcə də 2021-ci il və orta müddətli dövr üçün büdcə göstəricilərini özündə ehtiva edir.

Büdcə-öncəsi bəyanatın hazırlanması və zamanında açıqlanması müsbət qiymətləndirilməlidir. Məhz bu sənəd, hələ büdcə layihəsi ictimaiyyətə açıqlanmamış, geniş auditoriyaya imkan verir ki, növbəti mərhələdə ölkənin əsas makroiqtisadi istiqamətləri, dövlət büdcəsinin imkanları və vergi siyasətinin əsas prioritetləri ilə tanış olsunlar.

Büdcə-öncəsi bəyanat həm də mütəxəssislər və nisbətən geniş ictimai dairə üçün bu sahədə müəyyən debatların təşkilinə şərait yaradır. Təəssüf ki, Azərbaycanda ictimai müzakirələr, büdcə müzakirələri geniş vüsət almır və adətən dar çərçivədə mütəxəssislərin mediada analizi ilə məhdudlaşır. Bu baxımdan adı çəkilən sənədin hazırlanması və ictimaiyyətə açıqlanması praktikası özü-özlüyündə müsbət qiymətləndirilsə də, onun ətrafında ictimai müzakirələrin təşkili növbəti çağırış kimi dəyərləndirilməlidir.

**2.1.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

**2.2.** Dövlət büdcəsinin layihəsi ilə bağlı müzakirələrdə vətəndaş cəmiyyəti institutlarının iştirakının genişləndirilməsi

**İcra edir:** MaliyyəNazirliyi

**Tövsiyə edilir**:MilliMəclis
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Dövlət büdcəsinin layihəsi ilə bağlı keçirilən müzakirələr

Bu fəaliyyətlə bağlı ölkədə irəliləyiş olmamışdır. “Büdcə sistemi haqqında” Qanuna[14] əsasən dövlət büdcəsinin layihəsi oktyabrın 15-dək Milli Məclisə təqdim edilməli (maddə 13), dekabrın 20-dən gec olmayaraq MM üzvləri tərəfindən müzakirə edilib təsdiq edilməlidir (maddə 15.3).

Növbəti ilin dövlət büdcəsi layihəsinin MM-də müzakirəsi bir qayda olaraq qısa zaman kəsiyində baş verir və qızğın müzakirələrlə müşayiət olunmur. Öncə müvafiq komitələrdə başlayan müzakirələr, bir və ya bir neçə sessiyadan sonra plenar iclaslarda davam edir. Vətəndaş Cəmiyyəti üzvlərinin nə komitə müzakirələrində, nə də plenar iclaslarda büdcə müzakirələrinə dəvəti baş vermir.

“İctimai İştirakçılıq haqqında” Qanunun 5-ci fəsli qanun layihələrinə dair ictimai

---

[12] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/5f522c3912a48.pdf

[13] http://www.maliyye.gov.az/news/5485/azerbaycan-respublikasinin-2021-ci-ilin-dovlet-ve-icmal-budcelerinin-ilkin-gostericilerine-dair-aciqlama/

[14] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static- pages/files/5c1a2bda1a9dc.pdf

müzakirələri özündə ehtiva edir. Qanuna görə bu müzakirələrin təşəbbüskarı məhz MM olmalı və müzakirələrin təfsilatı və nəticələri 3 gün ərzində MM-in r ə s m i internet səhifəsində dərc olunmalıdır. Praktikada isə dövlət büdcəsinin layihələri ilə bağlı müzakirələr MM üzvlərinin və aidiyyəti dövlət qurumlarının iştirakı ilə keçir. VC təmsilçiləri kənarda qalır.

Beynəlxalq Büdcə Tərəfdaşlığının 2 ildən bir keçirdiyi Açıq Büdcə Sorğusunun sonuncu- 2019-cu ilin göstəricilərinə görə Azərbaycan məhz bu indikator üzrə ən aşağı nəticəni nümayiş etdirib (Sual 125: d:- dövlət orqanları büdcənin hazırlanma, müzakirə və təsdiq edilməsi prosesində ictimai iştirakçılığı təmin etməyib)

**2.2.** Bəndi üzrə qiymətləndirmə: **0 bal**

**2.3.** Dövlət büdcəsinin və icmal büdcənin icra göstəriciləri barədə məlumatların müvafiq hesabat dövründən sonrakı ayın sonuna kimi açıqlanması

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Məlumatların Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi

2020-ci ilin yanvarından başlayaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi öz saytında "Büdcənin gəlir və xərc hissəsinin yerinə yetirilməsinin təhlili" adlı bölməsinin[15] "Dövlət büdcəsinin icrasına dair dövri (aylıq, rüblük) hesabatlar" adlı altbölməsində ilin bütün ayları üzrə aşağıdakı məlumatları hesabat ayından sonrakı ayın sonunadək açıqlayır:

- ✓ İcmal büdcənin operativ icra göstəriciləri barədə məlumat;
- ✓ İlin əvvəlindən hesabat dövrünədək olan büdcənin vergi və qeyri-vergi gəlirlərinin faktiki ümumi məbləği, hər iki kateqoriyanın daxilolma mənbələri üzrə göstəriciləri, habelə onların müvafiq daxilolma proqnozları və əvvəlki ilin müvafiq dövrü ilə müqayisəsi;
- ✓ Dövlət büdcəsində nəzərdə tutulmuş proqramlar və bu qəbildən olan tədbirlər barədə (operativ) Məlumat;
- ✓ Dövlət büdcəsinin xərclərinin icrası barədə hesabat (funksional və iqtisadi təsnifatların paraqrafları üzrə);
- ✓ Məcmu dövlət borcu (daxili və xarici) barədə operativ məlumat;
- ✓ Məcmu dövlət borcu (daxili və xarici) barədə operativ məlumat;
- ✓ Məcmu dövlət borcunun (daxili və xarici) tərkibi haqqında operativ məlumat.

2020 və 2021-ci ilin yanvar ayından dekabradək (dekabr da daxil olmaqla) yuxarıda sadalanan məlumatların hamısı saytda yerləşdirilib[16].

Qeyd etmək lazımdır ki, büdcənin icrası ilə bağlı bu istiqamətdə hökumətin fəaliyyəti xeyli genişlənib. Belə ki, öncə Maliyyə Nazirliyi rəsmi səhifəsində daha dar çərçivədə, yalnız rüblük məlumatların qısa variantını yerləşdirməklə kifayətlənirdi. Odur ki, hesabat dövründə hökumətin büdcənin icrası ilə bağlı fəaliyyətini yüksək qiymətləndirmək lazımdır.

**2.3.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

[15] http://maliyye.gov.az/static/15/budcenin-gelir-ve-xerc-hissesinin-yerine-yetirilmesinin-tehlili
[16] http://maliyye.gov.az/static-page/periodic-reports

**2.4.** Növbəti büdcə ili üzrə təsdiq olunmuş büdcənin xərcləri (büdcə proqramları üzrə xərclər daxil) və gəlirləri barədə kateqoriyalar üzrə məlumatların açıqlanması

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Məlumatların Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi

Maliyyə Nazirliyi 2020-ci ildən başlayaraq saytında - "Təsdiq olunmuş dövlət büdcəsinin əsas göstəriciləri" bölməsində - təsdiq edilmiş büdcənin xərcləri və gəlirləri barədə kateqoriyalar üzrə məlumatları yerləşdirməkdədir. 2020-ci il üzrə dövlət büdcəsi təsdiq edildikdən sonra Nazirliyin saytında qeyd olunan məlumatları əks etdirən aşağıdakı sənədlər yerləşdirilib[17]:

1) Büdcənin vergi və qeyri-vergi gəlirlərinin ümumi məbləği, habelə hər iki kateqoriyanın daxilolma mənbələri üzrə göstəriciləri;

2) Dövlət büdcəsində nəzərdə tutulmuş proqramlar və bu qəbildən olan tədbirlər barədə məlumat;

3) 2020 və 2021-ci il üzrə dövlət büdcəsi xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlarının paraqrafları səviyyəsində göstəricilər;

4) 2020-ci və 2021-ci illər dövlət büdcəsi haqqında Azərbaycan Respublikası Qanunlarının tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanları.

Bu məlumata onu da əlavə etməkdə fayda var ki, 2020-ci il dövlət büdcəsinin xərcləri və gəlirləri barədə kateqoriyalar üzrə məlumat həm də 2020-ci il üzrə dövlət və icmal büdcələrin layihələrinin müzakirəsi mərhələsində də Nazirliyin saytında yerləşdirilmişdi[18].
2020-ci ilin avqustunda 2020-ci il üzrə dövlət və icmal büdcəsində dəyişikliklər edilərək dürüstləşdirilmə aparılmışdır. Dövlət büdcəsinin gəlir və xərclərində həyata keçirilən dəyişikliklər barədə məlumatlar layihə formasında Nazirliyin saytında yerləşdirilmişdir. Büdcə dəyişiklikləri üzrə layihələr Milli Məclisə təqdim edildiyi kimi təsdiq olunduğundan, həmin sənədlər həm də dürüstləşdirilməklə təsdiq olunmuş büdcə sənədləri hesab olunur. Büdcədə dəyişikliklər edildikdən sonra 2020-ci il dürüstləşdirilmiş büdcənin xərcləri və gəlirləri barədə kateqoriyalar üzrə aşağıdakı sənədlər sayta yerləşdirilmişdir[19]:

1) 2020-ci il dürüstləşdirilmiş dövlət və icmal büdcələrinin layihələri və parametrlər;

2) Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə;

3) "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasınını Qanun layihəsinə dair izahat;
4) Azərbaycan Respublikasının 2020-ci il dürüstəşdirilmiş dövlət büdcəsinin funksional və iqtisadi təsnifata uyğun olaraq paraqraflar səviyyəsində xərcləri.

2021-ci il üzrə təsdiq edilmiş dövlət büdcəsinin xərcləri və gəlirləri barədə kateqoriyalar üzrə məlumatları əks etdirən aşağıdakı sənədlər Nazirliyin saytında - "Təsdiq olunmuş dövlət büdcəsinin

---

[17] http://maliyye.gov.az/static/254/tesdiq-olunmus-dovlet-budcesinin-esas-gostericileri
[18] http://maliyye.gov.az/static-page/page/173
[19] http://maliyye.gov.az/static-page/page/185

əsas göstəriciləri” bölməsində - yeləşdirilmişdir[20]:

1) 2021-ci il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş proqramlar və bu qəbildən olan tədbirlər barədə məlumat;

2) 2021-ci il üzrə büdcənin vergi və qeyri vergi gəlirlərinin ümumi məbləği, habelə hər iki kateqoriyanın daxilolma mənbələri üzrə göstəriciləri;

3) “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı;

4) 2021-ci il dövlət büdcəsinin xərclərinin funksional, iqtisadi və inzibati təsnifatların paraqrafları səviyyəsində göstəriciləri.

**2.4.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

**2.5.** Növbəti büdcə ili üzrə təsdiq olunmuş dövlət borcunun göstəricilərinin (yeni borclanmalar, ümumi borclanmanın məbləği və ödəniləcək faizlər) açıqlanması

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti**: 2020-2022-ci illər
**İndikatorlar:** Məlumatların Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi

“Büdcə sistemi haqqında” Qanunun[21] 12-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Prezidenti tərəfindən növbəti büdcə ili üzrə dövlət büdcəsi ilə bağlı sənədlərlə yanaşı dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərə dair məlumatlar da Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməlidir.

Maliyyə Nazirliyi hər il növbəti ilin dövlət büdcəsi haqqında Qanun layihəsi ilə yanaşı həmin Qanun layihəsinə dair r ə s m i səhifəsində İzahat sənədi yerləşdirir. Bu sənəddə borclanma barədə bəzi məlumatlar əksini tapır. Məsələn, ”Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinə dair İzahatın[22] 6.7-ci bölməsi “Dövlət borcu, dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər və dövlət borclanmalarının yuxarı həddləri (limitləri)” adlanır. Bölmədə həm daxili, həm də xarici borc barədə məlumatlar əksini tapır.

Xarici dövlət borcuna münasibətdə aşağıdakı məlumatlar əksini tapır:

- Xarici dövlət borcunun həcmi haqqında ümumi məlumat və onun həcminin il ərzində dəyişməsi;
- Xarici borcun cəlb edilmə müddətləri
- Xarici borcun cəlb edildiyi valyutanın növü üzrə bölgüsü
- Xarici borcun faiz dəyişkənliyi
- Növbəti ildə ödəniləcək borcun əsas hissəsi və faizləri

[20] http://maliyye.gov.az/static/254/tesdiq-olunmus-dovlet-budcesinin-esas-gostericileri
[21] http://www.e-qanun.az/framework/1126
[22] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/5fe0996cc4b44.pdf

Daxili dövlət borcuna münasibətdə aşağıdakı məlumatlar əksini tapır:

- Daxili dövlət borcunun həcmi haqqında ümumi məlumat
- İl ərzində cəlb ediləcək daxili borcun yuxarı həddi
- Növbəti ildə ödəniləcək borcun əsas hissəsi və faizləri

**2.5** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

**2.6.** Dövlət istiqrazlarının buraxılışı üzrə keçirilən hərracların nəticələrinin açıqlanması

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Məlumatların Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi

Azərbaycan Respublikası Maliyyə Nazirliyi hər ilin sonunda növbəti ildə buraxılması nəzərdə tutulan dövlət istiqrazları barədə məlumatları rəsmi saytında yerləşdirir[23]. Bu məlumatlara dövlət istiqrazlarının şərtləri, dövlət qiymətli kağızları (DQK) üzrə hərracların nəticələri və DQK-nın Emissiya Planı daxildir.

Buraxılış şərtləri. Nazirlik 2011-ci ildən başlayaraq hər il, o cümlədən Fəaliyyət Planında nəzərdə tutulduğu kimi 2020 və 2021-ci illər üzrə buraxmağı nəzərdə tutduğu qısamüddətli və ortamüddətli istiqrazlarının buraxılış şərtləri saytda yerləşdirilib[24]. Bura dövlət istiqrazının tədavüldə olma müddəti, növü, nominalı, sayı və digər şərtlər daxildir. Bu bölmədə həmçinin Nazirliyin cari ildə buraxmağı planlaşdırdığı emissiyanın həcmi də qeyd edilir. Məsələn, Nazirliyin məlumatına görə, 2021-ci ildə qısamüddətli (1 ilədək) istiqrazlar üzrə emissiyanın həcmi 500 milyon manat[25], ortamüddətli (5 ilədək) istiqrazlar üzrə 1,7 milyard manat[26] nəzərdə tutulur.

DQK-nın Emissiya Planı. Nazirlik 2016-cı ildən başalayaraq il ərzində Bakı Fond Birjasında yerləşdirməyi planlaşdırdığı dövlət istiqrazları üzrə hərracların keçiriləcəyi həftə, istiqrazın dövriyyə müddəti və məbləği barədə məlumatlar cədvəlini təqdim edir. Plan birbaşa illik yox, aylıq, bəzi hallarda bir neçə aylıq açıqlanır.

DQK üzrə hərracların nəticələri. Bu bölmədə 2007-ci ildən başlayaraq Maliyyə Nazirliyinin iştirakı ilə Bakı Fond Birjasında keçirilmiş hərracların nəticələri barədə veb-səhifədə məlumatlar yerləşdirilir.
Açıqlamada aşağıdakı məlumatlar əksini tapır:

- Hərracın keçirilmə tarixi;
- Hərracın keçirildiyi yer;
- Dövlət istiqrazlarının İSİN kodu;
- Dövlət istqrazlarının tədavül müddəti;
- İnvestorlar tərəfindən təqdim edilən sifarişlərin ümumi məbləği;

[23] http://www.maliyye.gov.az/static/16/dovlet-qiymetli-kagizlari
[24] http://www.maliyye.gov.az/static/116/buraxilis-sertleri
[25] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static- pages/files/5ff6ca8a9af4a.pdf
[26] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static- pages/files/5ff6ca8a95bad.pdf

- Hərracda yerləşdirilən istiqrazların ümumi məbləği;
- İstiqrazların orta ölçülmüş qiyməti (illik gəlirliliyi);
- İstiqrazların ödəmə müddəti.

Maliyyə Nazirliyindən fərqli olaraq Bakı Fond Birjası (BFB) 5 gün öncədən keçirilməsi nəzərdə tutulan hərracın konkret tarixi və saatı barədə məlumatı da yerləşdirir[27]. BFB eyni zamanda hərracın şərtlərini də elan mətninə daxil edir. Hərrac bitdikdən sonra nəticələri açıqlayır. Maliyyə Nazirliyinin məlumatından əlavə hərracda iştirak edən investorların və sifarişlərin sayı, qiymət intervalı, istiqrazların kəsmə qiyməti barədə məlumatlar ictimaiyyətə açıqlanır.

**2.6.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

**2.7.** Azərbaycan Respublikasının xarici dövlət borcu barədə məlumatların açıqlanması

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Məlumatların Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi

Maliyyə Nazirliyi rəsmi internet saytında "Dövlət borcu" adlı bölmədə konkret tarixlə müxtəlif beynəlxalq maliyyə-kredit qurumları və xarici banklarla imzalanmış kredit sazişləri çərçivəsində Azərbaycan Respublikasının birbaşa xarici dövlət borcuna dair qısa bir məlumat yerləşdirir[28].

Bunlar aşağıdakılardır:

- Ümumi xarici dövlət borcunun həcmi və ölkənin ÜDM-də payı;
- İmzalanmış kredit sazişləri çərçivəsində alınmış birbaşa xarici dövlət borcunun həcmi və ölkənin ÜDM-də payı;
- dövlət müəssisələri tərəfindən cəlb edilmiş xarici borclara verilmiş dövlət zəmanətləri üzrə şərti öhdəliklərin həcmi və ÜDM-də payı;

Bütün bunlarla yanaşı xarici dövlət borcunun strukturu barədə ümumi sözlər (beynəlxalq maliyyə institutlarından infrastruktur layihələri və maliyyələşmə proqramları üçün cəlb edilmiş kreditlərdən, həmçinin beynəlxalq maliyyə bazarlarında yerləşdirilmiş dövlət qiymətli kağızlardan ibarət olması) daxil edilib. Saytda xarici dövlət borcunun həcminə dair son məlumat 2020-ci il iyulun 1-i tarixinə aiddir.

"Azərbaycan Respublikasının 2021-ci il dovlət budcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə dair İzahatın[29] 6.7-ci bölməsi "Dövlət borcu, dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər və dövlət borclanmalarının yuxarı həddləri (limitləri)" adlanır. Bölmədə xarici borc barədə məlumatlar da əksini tapır.

Xarici dövət borcuna münasibətdə aşağıdakı məlumatlar mövcuddur:

- Xarici dövlət borcun həcmi haqqında ümumi məlumat və onun həcminin il ərzində dəyişməsi;

---

[27] https://www.bfb.az/az/xeber/maliyye-nazirliyinin-istiqrazlarinin-yerlesdirilmesi-uzre-herrac-kecirilecekdir-25
[28] http://www.maliyye.gov.az/static/114/xarici-dovlet-borcu-barede-melumat
[29] http://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/5fe0996cc4b44.pdf

- Xarici borcun cəlb edilmə müddətləri
- Xarici borcu cəlb edildiyi valyutanın növü üzrə bölgüsü
- Xarici borcun faiz dəyişkənliyi
- Növbəti ildə ödəniləcək borcun əsas hissəsi və faizləri

Qanun layihəsinə dair İzahatda ümumi dövlət borcuna, o cümlədən xarici dövlət borcuna xidmətlə bağlı xərclərin həcmi göstərilib. İzahat sənədində həmçinin Maliyyə Nazirliyi ilk dəfə olaraq dövlət borcu ilə bağlı riskləri qeyd edib. Nazirlik xarici dövlət borclarının qaytarılmasında gözlənilən risklər qismində dövlət müəssisələrinin dövlət zəmanətli borcları üzrə öhdəliklərini tam və ya qismən yerinə yetirə bilməməsini, borc üzrə istinad faiz dərəcələrinin (LIBOR və Euribor) artmasını göstərib.

**2.7.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

Dövlət büdcəsinin və icmal büdcənin layihələrinin, habelə dövlət büdcəsinin icrası ilə bağlı hesabatlar üzrə ictimai maarifləndirmə tədbirlərinin artırılması

**İcra edir:** Maliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** İctimai maarifləndirmə ilə bağlı keçirilən tədbirlər

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 2016-cı ildən, dövlət büdcəsi təsdiq edildikdən sonra dövlət büdcəsi və icmal büdcəsi layihələri üzrə Vətəndaşın büdcə bələdçisini hazırlayıb öz saytında yerləşdirilməsinə başlamışdır. Bu iş davam etməkdədir. Nazirliyin saytında "Dövlət büdcəsi" bölməsində[39] "Dövlət və icmal büdcələri üzrə Vətəndaşın büdcə bələdçisi" adlı altbölmə yaradılıb[30] və 2016-2021-ci illərin dövlət və icmal büdcələrinin layihələri üzrə hazırlanmış oxşar sənədlər orada yerləşdirilmişdir.

Azərbaycan Respublikasının 2021-ci il dövlət və icmal büdcələri üzrə Vətəndaşın büdcə bələdçisi nazirlik tərəfindən 2021-ci ilin yanvar ayında sayta yerləşdirilmişdir[31].

Amma Nazirliyin hazırlayıb saytda yerləşdirdiyi Vətəndaşın büdcə bələdçisi artıq parlamentdə təsdiq olunmuş və dövlət başçısı tərəfindən imzalanmış büdcələr üzrə olur. Amma dövlət büdcəsi və icmal büdcəsinin layihələrinin müzakirəsi mərhələsində vətəndaşların büdcə layihələri barədə məlumatlandırılmasına və ictimai iştirakçılığın genişləndirilməsinə yönəlik vətəndaş büdcələrinin hazırlanması hələlik baş tutmayıb.

Dövlət büdcəsinin və icmal büdcənin layihələri üzrə başqa ictimai maarifləndirmə tədbirləri barəsində Nazirliyin saytında məlumat yoxdur.

Dövlət büdcəsinin icrası ilə bağlı hesabatlar üzrə ictimai maarifləndirmə istiqamətində Nazirlik və başqa dövlət qurumları tərəfindən heç bir xüsusi addım atılmır və ya tədbirlər keçirilmir.

**2.8.** Bəndi üzrə qiymətləndirmə: **3 bal**

Dövlət maliyyə nəzarətini həyata keçirən orqanlar tərəfindən nəzarət tədbirlərinin nəticələrinin açıqlanması

---

[30] http://maliyye.gov.az/static/112/dovlet-ve-icmal-budceleri-uzre-vetendasin-budce-beledcisi
[31] http://maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/static-pages/files/5ff4100f0ce67.pdf

**İcra edir:** Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi.
**Tövsiyə edilir**: Hesablama Palatası
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** İnternet resurslarında maliyyə nəzarəti orqanlarının apardığı nəzarət tədbirlərinin nəticələrinə dair informasiyaların mövcudluğu

"Hesablama Palatası haqqında" Qanunun[32] 21-ci maddəsi ali audit orqanının kənar maliyyə nəzarət tədbirlərinə hazırlıq və onların planlaşdırılması ilə bağlıdır. Bu maddəyə əsasən, Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti tədbirinin keçirilməsinə hazırlıq üzrə özünün növbəti il üçün iş planını tərtib və təsdiq edir. Qanunun 22-ci maddəsinə görə, Palata kənar dövlət maliyyə nəzarəti obyektlərinin gəlirlərinin, xərclərinin, əmlakının, öhdəliklərinin, zəmanətlərinin, digər aktiv və passivlərinin idarə olunmasının qiymətləndirilməsi məqsədilə audit fəaliyyəti həyata keçirir. Kənar maliyyə nəzarətini təmin etmək üçün 3 cür audit həyata keçirilə bilər:

1) maliyyə auditi (maliyyə əməliyyatları və hesabatlarının uyğunluğunun, düzgünlüyünün və tamlığının yoxlanması);
2) səmərəlilik (performans) auditi (proqram, layihə, fəaliyyət və əməliyyatların qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsi);
3) uyğunluq auditi (müvafiq obyektlərin hüquqi aktların tələblərinə əməl etməsi vəziyyətinin qiymətlənidirilməsi).

Qanunun 37-ci maddəsində kənar dövlət maliyyə nəzarəti tədbirləri ilə bağlı məlumatların açıqlanmasına qarşı tələblər var. Lakin bu maddədə nəzarət tədbirlərinin media və internet resursları vasitəsilə ictimailəşdirilməsinə dair konkret hüquqi tələblər mövcud deyil. Hüquqi tələb budur ki, maliyyə nəzarəti tədbirlərinin nəticələrinə dair materiallar Milli Məclisə göndərildikdən sonra verilir. Lakin rəsmi məlumatların məzmunu və formasını müəyyən etmək Hesablama Palatasının kollegiyasının hüququdur. Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti ilə əlaqədar xüsusi informasiya bülletenləri, jurnal və digər nəşrlər dərc etdirə biləcəyi qeyd edilir.

Bununla belə təcrübədə Hesablama Palatası 3 formada özünün maliyyə nəzarət fəaliyyətinin nəticələrilə bağlı məlumatları ictimailəşdirir:

1) Rəsmi saytında "Auditlər" bölməsində[33] audit fəaliyyətinin nəticələrinə dair məlumatları açıqlayır. Lakin həmin məlumatlar qısa press-relizlər formasında olur, audit hesabatlarının tam mətni saytda yerləşdirilmir. Həmin bölmədə 2018-2020-ci illər üzrə maliyyə auditi ilə bağlı cəmi 1, uyğunluq auditi ilə bağlı 3 məlumat olub, səmərəlilik auditi üzrə isə hər hansı məlumat mövcud olmayıb;
2) Auditlərin nəticəsi ilə bağlı Palatanın illik və yarımillik hesabatlarında daha geniş məlumatlar verilir. Bu məlumatları qurumun Hesabatlar bölməsində[34] yerləşdirilən müvafiq materiallardan götürmək mümkündür. Hesabatlarda "audit fəaliyyətinin nəticələri" adlı ayrıca bölmədə dövr üzrə keçirilmiş maliyyə nəzarəti tədbirlərinə dair məlumatlar yerləşdirilir;

[32] http://www.e-qanun.az/framework/39922
[33] http://sai.gov.az/filter?type=audit
[34] http://sai.gov.az/filter?type=fealiyyet-hesabati

3) Hesablama Palatasının saytında yayılan "Dövlət auditi" elektron jurnalında[35] maliyyə nəzarəti tədbirləri ilə bağlı həm geniş rəsmi məlumatlar, həm də Palata mütəxəssislərinin analitik yazıları yayımlanır. Jurnal hər rübdə bir dəfə olmaqla il ərzində 4 dəfə hazırlanır.

Dövlət orqanlarında maliyyə nəzarətini həyata keçirmək səlahiyyəti olan digər qurum Maliyyə Nazirliyidir. Nazirlik özünün "Dövlət Maliyyə Nəzarəti Xidməti" adlanan qurumu vasitəsilə büdcə təşkilatlarında daxili audit tədbirləri həyata keçirir. Xidmətin Əsasnaməsinə[36] görə, qurum dövlət büdcəsinin, məqsədli büdcə fondlarının vəsaitlərinin xərclənməsi, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə vəsaitlərinin əldə edilməsi və xərclənməsi, dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kreditlərin xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirir. Lakin Əsasnamədə Xidmətin apardığı maliyyə nəzarəti tədbirlərinin ictimailəşdirilməsinə dair tələblər nəzərdə tutulmur. Təcrübədə də Maliyyə Nazirliyinin öz rəsmi saytı[37] vasitəsilə nə özünün fəaliyyət hesabatı, nə də daxili maliyyə nəzarəti tədbirlərinin nəticələri barədə məlumatların yayılması təmin edilmir.

**2.9.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

Nizamnamə kapitalında dövlətə məxsus payları (səhmləri) olan iri dövlət müəssisələrinin, büdcədənkənar dövlət fondlarının illik maliyyə hesablarının açıqlanması

**İcra edir:** Nizamnamə kapitalında dövlətə məxsus payları (səhmləri) olan iri dövlət müəssisələri, büdcədənkənar dövlət fondları
**İcra müddəti:** 2020–2022-ci illər
**İndikatorlar:** Məlumatların müvafiq dövlət orqanlarının rəsmi internet informasiya ehtiyatlarında yerləşdirilməsi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarı ilə "Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərində korporativ idarəetmə Qaydaları və Standartları" təsdiq edilib. Qaydaların "Səhmdar cəmiyyətin fəaliyyətinin şəffaflığının təminatı" adlı 5-ci bəndində vurğulanır ki, Müşahidə Şurası (Direktorlar Şurası) səhmdar cəmiyyətin fəaliyyəti haqqında bütün məlumatların, o cümlədən maliyyə hesabatlarının tam, düzgün və vaxtında dərc edilməsini təmin etmək üçün müvafiq qaydalar qəbul etməlidir (5.4-cü bənd). Açıqlanan məlumat internet saytında və mətbuat orqanlarında yayımlanır. İllik hesabat növbəti ilin 1 iyul tarixinədək, rüblük hesabatlar olduqda isə hesabat dövründən sonrakı 30 gün ərzində dərc edilir (5.6-cı bənd)[38].

Göründüyü kimi, Nazirlər Kabinetinin bu qeyd olunan qərarına əsasən dövlət şirkətləri və dövlət büdcəsindən vəsait alan qurumlar hesabat ili üzrə maliyyə hesabatlarını cari ilin 1 iyulundan gec olmayaraq öz saytlarında yerləşdirməlidirlər. Həm bu qərarda, həm də ictimai informasiyanın açıqlanması tələblərini əks etdirən digər qanunvericilik sənədlərində (Mühasibat Uçotu haqqında Azərbaycan Respublikasının Qanunu, İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu, Nazirlər Kabinetinin 2018-ci il 26 noyabr tarixli 504 saylı qərarı və başqaları) göstərilir

[35] http://sai.gov.az/jurnallar
[36] http://www.e-qanun.az/framework/16199
[37] http://maliyye.gov.az/
[38] http://e-qanun.az/framework/42596

ki, bu qurumların maliyyə hesabatları beynəlxalq standartlara uyğun olmalı, saytda yerləşdirilən hesabatlar ictimaiyyət üçün əlçatan və oxuna bilən şəkildə olmalıdır.

Monitorinq zamanı 31 iri dövlət şirkətinin və dövlət büdcəsindən maliyyələşdirilən bəzi qurumların saytlarının monitorinqini apardıq (siyahı və monitorinqin nəticələri əlavə olunur). Məlum olub ki, monitorinqini apardığımız 31 qurumdan yalnız 11-i 2020-ci il üzrə maliyyə hesabatını beynəlxalq standarta uyğun tam şəkildə sayta yerləşdirib. Hətta həmin qurumların hesabatları ilə tanış olanda bəlli olur ki, hesabatların bir çoxu avqust və sentyabr aylarında imzalanıb, yəni onların saytlarda yerləşdirilməsi qanunvericilikdə nəzərdə tutulan müddətdən (1 iyuldan) sonra baş verib. Monitorinqə cəlb olunan 31 şirkət və qurumdan 9-u maliyyə hesabatlarını ya qismən (yəni izahatlar hissəsi olmadan yalnız maliyyə balansını və auditor rəyini) saytlarına yerləşdiriblər. Bu zaman bəzi şirkət və qurumların saytlarında ümumiyyətlə "hesabatlar" bölməsi ya heç yoxdur, ya da bunu hansısa bölmələrin altbölməsi kimi yerləşdiriblər. Bu zaman maliyyə hesabatı adı altında təqdim etdikləri məlumatları "xəbərlər", "elanlar" və yaxud başqa bölmələrdə yerləşdirirlər. Dövlət büdcəsindən ən çox vəsait alan və layihələr həyata keçirən "Azəravtoyol" ASC maliyyə hesabatı əvəzinə bəzi maliyyə məlumatlarını əks etdirən məlumatlar yerləşdirib. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin də yerləşdirdiyi sənədlər də beynəlxalq standartlara uyğun deyildir. "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin 2019-cu il üzrə saytına yerləşdirdiyi maliyyə hesabatı isə oxumaq mümkün deyildir.

Monitorinqi apatılan 11 şirkət maliyyə hesabatlarını ümumiyyətlə yerləşdirməyiblər. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC və Azerbaijan International Telecom" (AzInTelecom)" MMC-nin heç ümumiyyətlə müstəqil saytları yoxdur. "Azərbaycan Hava Yolları" QSC, Bakı Nəqliyyat Agentliyi və onun tabeliyində olan "BakıBus"MMC, "Təmiz Şəhər" ASC, "Azəristiliktəchizat" ASC, "Aqrar tədarük və təchizat" ASC maliyyə hesabatlarını açıqlamayıblar. "Azərxalça" ASC 2017 və 2018-ci illər üzrə maliyyə hesabatını açıqladığı halda, 2019-cu il üzrə hesabatını açıqlamayıbdır.

Dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin 2018-2020-ci illərdə hesabat ilinin illik maliyyə hesabatlarını açıqlanması durumu Əlavə 1-dəki cədvəldə əks etdirilir.

**2.10.** Bəndi üzrə qiymətləndirmə: **2 bal**

Dövlət satınalmalarının vahid internet portalının funksionallığının artırılması, burada yerləşdirilən məlumatların dairəsinin genişləndirilməsi

**İcra edir:** İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Portalın fəaliyyətinin genişləndirilməsi ilə bağlı görülən tədbirlər

Dövlət satınalmaları sisteminin rəqəmsal resurslar əsasında inkişaf etdirilməsi, elektron satınalma sisteminə keçid 2019-cu ildən start götürüb. Belə ki, 28 dekabr 2018-ci ildə "Dövlət satınalmaları haqqında" Qanuna edilən dəyişiklik[39] elektron satınalma sisteminin funksionallığının

[39] http://www.e-qanun.az/framework/41178

artırılması istiqamətində aşağıdakı addımlar atıldı:

- ✓ Qanuna dövlət satınalmalarının vahid internet portalının yaradılması ilə bağlı müddəa daxil edildi;
- ✓ "Elektron satınalma" anlayışı qanuna daxil edildi;
- ✓ Satınalma planlarının hazırlanması və internet vasitəsilə açıqlanması tələbi qanuna daxil edildi;
- ✓ Təkliflərin cəlb edilməsi, ixtisas uyğunluğunun müəyyənləşdirilməsi, elektron satınalmada iştirak üçün dəvətin onlayn göndərilməsi tələbi müəyyən edildi.

Bu dəyişikliyin ardınca – 16 aprel 2019-cu ildə "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"[40] təsdiq edildi. Əsasnaməyə uyğun olaraq vahid internet portalının effektiv fəaliyyəti üçün aşağıdakı addımların atılması nəzərdə tutuldu və 2019-2020-ci illərdə həmin addımlara uyğun vahid elektron satınalma portalının fəaliyyəti təmin edildi:

- ✓ tender elanının onlayn dərci;
- ✓ malgöndərən tərəfindən tenderdə iştirak etmək üçün zəruri sənədlərin satınalan təşkilata onlayn təqdim edilməsi;
- ✓ tenderdə iştirak haqqının onlayn ödənilməsi;
- ✓ malgöndərənin (podratçının) iddiaçı kimi onlayn qeydiyyatdan keçməsi;
- ✓ iddiaçı kimi qeydiyyatdan keçmiş hər bir malgöndərən (podratçı) üçün elektron kabinetin yaradılması;
- ✓ satınalan təşkilat ilə malgöndərən (podratçı) arasında qarşılıqlı məlumat və sənədlərin onlayn mübadiləsi;
- ✓ tender təkliflərinin onlayn təqdim olunması;
- ✓ tender təklifinin təminatının onlayn qaydada verilməsi;
- ✓ tender komissiyasının virtual iclaslarının keçirilməsi;
- ✓ tender təkliflərinə baxılmasının, onların qiymətləndirilməsinin və müqayisəsinin onlayn baş verməsi;
- ✓ bildirişlərin elektron qaydada göndərilməsi;
- ✓ tenderin əsas şərtlər toplusunun, tender prosedurlarını tənzimləyən normativ hüquqi aktların, satınalma müqaviləsinin, habelə onun standart şərtlərinin və digər sənədlərinelektron kabinetə yerləşdirilməsi;
- ✓ şikayətin onlayn verilməsi və həmin şikayətlərə baxılmasının nəticələri barədə qərarın onlayn əldə olunması;
- ✓ hesab-fakturaların satınalan təşkilata elektron qaydada təqdim olunması;
- ✓ satınalma planının yerləşdirilməsi.

2019-2020-ci ilərdə sadalanan istiqamətlərin hər biri üzrə satınalmalar üzrə vahid internet

[40] http://www.e-qanun.az/framework/42007

portalının təkmilləşdirilməsi mümkün olub. Həmin dövrdə yalnız müqavilənin elektron qaydada bağlanmasını təmin etmək mümkün olmayıb.

"Dövlət satınalmalarının qanunvericiliyin tələblərinə uyğun təşkili barədə" adlı 3 (üç) maarifləndirici məlumat hazırlanaraq etender.gov.az internet portalı vasitəsilə satınalan təşkilatların nəzərinə çatdırılıb[41].

Dövlət müəssisə və təşkilatları tərəfindən dövlət satınalmaları sahəsində qanunvericiliyin tələblərinə riayət olunması, bununla bağlı onların daşıdığı məsuliyyət və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 330-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar qanunvericiliyə edilmiş dəyişikliklər barədə 3 dildə məlumat dövlət satınalmalarının vahid internet portalına yerləşdirilmiş, həmçinin "tez-tez verilən suallar" bölməsi yenilənib[42].

Eyni zamanda, satınalan təşkilatlar tərəfindən elektron satınalma vasitəsilə portal üzərindən həyata keçirilən tenderlərdə iddiaçı qismində iştirak edən malgöndərənlər (podratçılar) barədə tələb olunan ixtisas göstəricilərinə uyğunluq sənədlərinin həmin portaldan əldə edilməsini təmin etmək məqsədilə bir sıra dövlət orqanlarının (qurumlarının) elektron informasiya məlumatlarının (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) dövlət satınalmalarının vahid internet portalına inteqrasiya edilməsi istiqamətində işlər görülməkdədir.

Həmçinin, "Dövlət satınalmalarının vahid internet portalı haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1376 nömrəli Fərmanının[43] 3-cü hissəsində nəzərdə tutulan altsistemə inteqrasiya edilməli olan digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinin və ehtiyatlarının siyahısının, habelə həmin informasiya sistemlərindən və ehtiyatlarından inteqrasiya olunmalı məlumatların dairəsinin müəyyənləşdirilməsi üçün tədbirlər görülməkdədir. Satınalan təşkilat tərəfindən müqavilənin icrasına başlanması üçün tələb olunan icazələri verən qurumların siyahısı müəyyən edilmiş və bununla əlaqədar dövlət satınalmalarının vahid internet portalında altsistemin (icazələr portalının) yaradılması məqsədilə maliyyə vəsaitinin təmin edilməsi üçün Nazirlər Kabinetinə müraciət edilib.

**2.11.** Bəndi üzrə qiymətləndirmə: **4 bal**

**2.12.** Dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasına dair Hesablama Palatasının rəylərinin və Hesablama Palatasının illik fəaliyyəti haqqında yarımillik və illik hesabatların Palatanın rəsmi internet informasiya ehtiyatında açıqlanması

**İcra edir:** Hesablama Palatası
**İcra müddəti**: 2020-ci il
**İndikatorlar:** Məlumatların rəsmi internet informasiya ehtiyatında yerləşdirilməsi ilə bağlı tədbirlər

2020-ci ildə Dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasına dair Hesablama Palatasının rəylərinin və Hesablama Palatasının illik fəaliyyəti haqqında yarımillik və

[41] https://www.youtube.com/channel/UCg4GYx7bmtTyb0UlPSYJR3A
[42] https://etender.gov.az/question

[43] http://e-qanun.az/framework/47717

illik hesabatlar Palatanın rəsmi veb-saytında yerləşdirilmişdir[44] [45].Həmçinin Palatanın 2021-ci ildə yarımillik fəaliyyəti haqqında hesabat rəsmi-veb saytda yerləşdirilib.

Büdcədənkənar fondların fəaliyyəti üçün əsas hüquqi sənəd "Büdcə sistemi haqqında" Qanundur[46]. Bu qanunun 1.1.5-ci maddəsinə görə büdcədənkənar dövlət fondları dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondlarıdır.

Monitorinq dövründə Azərbaycanda 3 büdcədənkənar fond fəaliyyət göstərib: (1) Dövlət Neft Fondu; (2) Dövlət Sosial Müdafiə Fondu; (3) İşsizlikdən Sığorta Fondu.
Dövlət Neft Fondunun fəaliyyəti ölkə prezidentinin fərmanı ilə təsdiqlənən ayrıca Əsasnamə[47] ilə tənzimlənir. Dövlət Sosial Müdafiə Fondunun fəaliyyətini tənzimləyən ayrıca qanunvericilik aktı yoxdur, ümumi büdcə qanunvericiliyinin tələbləri çərçivəsində fəaliyyət göstərir. İşsizlikdən Sığorta Fondunun fəaliyyəti "İşsizlikdən sığorta haqqında" Qanunla[48] tənzimlənir. Fondun fəaliyyətini tənzimləyəcək ayrıca normativ-hüquqi sənəd mövcud deyil. İşsizlikdən Sığorta Fondu 2018-ci ildən fəaliyyət göstərir.

"Hesablama Palatası haqqında" Qanunun[49] 1.0.5-ci maddəsinə görə, büdcədənkənar fondlar ali audit orqanının maliyyə nəzarət obyektidir. Qanunun 7.0-ci maddəsinə görə, büdcədənkənar dövlət fondlarının (təsisatlarının) icrası barədə illik hesabatlara rəy verilməsi Hesablama Palatasının vəzifələri sırasına daxildir. Rəylər büdcədənkənar dövlət fondlarının büdcələrindən ayrılan vəsaitlərin qanunauyğun, məqsədyönlü səmərəli və təyinatı üzrə istifadəsi barədə analizlər təqdim etməlidir. Lakin təcrübədə Hesablama Palatası Dövlət Sosial Müdafiə Fondunun yalnız büdcə layihələrinə rəy verir, hər 2 fondun illik büdcələrinin icrasına Palata rəy hazırlamır. Yalnız 2018-ci ildən başlayaraq Dövlət Neft Fondunun illik büdcəsinin icrasına Hesablama Palatasının rəyi hazırlanıb.

Qanunda büdcədənkənar fondların illik büdcə icrası üzrə hesabatlara verilən rəylərin ictimaiyyətə açıqlanmasına qarşı dəqiq tələblər müəyyən edilməyib, yalnız həmin rəylərin Milli Məclisə təqdim edilməsinin vacibliyi vurğulanıb. Bununla belə, Hesablama Palatası 2018 və 2019-cu illərdə Dövlət Neft Fondunun illik büdcəsinin icrasına dair rəylərini özünün internet səhifəsində[50] yayıb və hamı üçün əlçatandır.

"Hesablama Palatası haqqında" Qanunun[51] 37-ci maddəsi qurumun hesabatlılığının çərçivələrini və zəruri tələbləri müəyyən edir. Bu maddənin tələbləri Palatanın özünün yarımillik və illik hesabatlarını internet səhifəsində yayılmasını nəzərdə tutmur. Qanununə görə, Hesablama Palatasının fəaliyyəti haqqında hesabatlar "Milli Məclisinin Məlumatı"nda dərc edilir.

Hesablama Palatası özünün yarımillik və illik hesabatlarını rəsmi internet səhifəsində yerləşdirir[52]. Qurumun fəaliyyətinə dair son 2017-2019-cu illəri əhatə edən[81] yarımillik və illik hesabatlarla rəsmi internet səhifəsindəki "Hesabatlarımız" adlı bölmədə tanış olmaq mümkündür.

**2.12.** Bəndi üzrə qiymətləndirmə: 6 **bal**

---

[44] https://sai.gov.az/filter?type=rey
[45] https://sai.gov.az/filter?type=fealiyyet-hesabati
[46] http://www.e-qanun.az/framework/1126
[47] http://www.e-qanun.az/framework/148
[48] http://www.e-qanun.az/framework/36310
[49] http://www.e-qanun.az/framework/39922
[50] http://sai.gov.az/rey/27
[51] http://www.e-qanun.az/framework/39922
[52] https://sai.gov.az/filter?type=fealiyyet-hesabati

## 3-cü istiqamət (Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 51 bal/98%**

**3.1.** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin (bundan sonra - risk qiymətləndirilməsi) dövri qaydada keçirilməsini təmin etmək məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi və koordinasiya mexanizminin yaradılması.

**İcra edir**: Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, Ədliyyə Nazirliyi
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Müvafiq normativ hüquqi aktın hazırlanması və qəbul edilməsi

2020-ci il 21 oktyabr tarixdə Nazirlər Kabineti "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında" 404 nömrəli Qərar qəbul etmişdir. Bu qərarla dövlət qurumlarının, habelə ictimai birliklərin rəhbər şəxslərindən ibarət tərkibdə Koordinasiya Şurası yaradılmışdır[53]. Koordinasiya Şurası tərəfindən MRQ prosesinin həyata keçirilməsinə və 404 nömrəli Qərarda nəzərdə tutulan digər fəaliyyətlərə ümumi nəzarət həyata keçirilir.

Azərbaycan Banklar Assosiasiyası, Azərbaycan Sığortaçılar Assosiasiyası və Azərbaycan Fond Bazarı İştirakçıları Assosiasiyası da Koordinasiya Şurasında təmsil olunurlar.

Risk qiymətləndirilməsinin keçirilməsi məqsədilə normativ hüquqi aktların hazırlanmasında ictimai iştirakçılıq təmin edilməyib. Həmçinin Koordinasiya Şurasında yalnız maliyyə və sığorta sahəsi ilə əlaqədar iştirakçıların peşəkar birliklərinin təmsil olunması vətəndaş cəmiyyətinin təmsilçiliyinin təmin edilməsi baxımından yetərli hesab oluna bilməz.

**3.1.** Bəndi üzrə qiymətlədnirmə **5 bal**

**3.2.** Risk qiymətləndirilməsinin keçirilməsi üçün zəruri olan metodologiyanın müəyyən edilməsi

**İcra edir**: İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Metodologiyanın müəyyən edilməsi ilə bağlı görülən tədbirlər

Risk qiymətləndirilməsinin keçirilməsi üçün zəruri olan metodologiyanın işlənilməsi üzrə İşçi Qruplar yaradılıb. İqtisadiyyat Nazirliyindən sorğuya cavab olaraq bildirilib ki, 2020-ci il 25 dekabr tarixində Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) sisteminin Milli Risk

[53] http://www.e-qanun.az/framework/46756

Qiymətləndirilməsinin (MRQ) həyata keçirilməsi, Avropa Şurasının müvafiq ekspert Komitəsi (MONEYVAL) tərəfindən aparılacaq 5-ci raund qiymətləndirilməsinə hazırlığın təmin edilməsi və digər məsələlərin müzakirəsi məqsədilə Koordinasiya Şurasının birinci iclası keçirilib[54].

Spesifik sahələr üzrə strateji təhlillərin və risk qiymətləndirmələrinin aparılması məqsədilə "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" proqramı çərçivəsində Avropa Şurası, qeyri-hökumət təşkilatları üzrə PL/TM risklərinin qiymətləndirilməsi üçün isə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi ilə növbəti ildə əməkdaşlıq, eləcə də PL/TMM sisteminin qiymətləndirilməsi üçün aidiyyəti işçi qrupları yaradılıb[55].

İqtisadiyyat Nazirliyinin təklifləri əsasında Koordinasiya Şurası tərəfindən MRQ-nin Dünya Bankının müvafiq metodologiyası əsasında həyata keçirilməsi qərara alınmışdır. Hazırda MRQ prosesi Dünya Bankının müvafiq metodologiyası əsasında davam etdirilir.

Bəndi üzrə qiymətləndirmə: **6 bal**

**3.3** Risk qiymətləndirilməsi üçün zəruri olan statistik və digər zəruri məlumatların maliyyə monitorinqi orqanına təqdim edilməsi və ümumiləşdirilməsi

**İcra edir**: İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, Dövlət Statistika Komitəsi, Daxili İşlər Nazirliyi və aidiyyəti dövlət qurumları
**Tövsiyə edilir:** Baş Prokurorluq
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Məlumatlardan risk qiymətləndirilməsinin keçirilməsində istifadə edilməsi

Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının 3.3-cü bəndinin icrası ilə əlaqədar bildiririk ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 oktyabr 2020-ci il tarixli, 404 nömrəli Qərarı ilə təsis edilmiş Koordinasiya Şurasının ilk iclası nəticəsində əldə olunmuş razılığa əsasən, milli risk qiymətləndirilməsinin həyata keçirilməsi, eləcə də, milli qanunvericiliyin PL/TM standartlarına uyğunlaşdırılması məqsədilə prokurorluq əməkdaşlarının da üzvlüyünə daxil olduğu "Milli zəifliklərin qiymətləndirilməsi" işçi qrupu yaradılıb. İşçi qrupun 23 fevral 2021-ci il tarixdə baş tutan iclasının yekun nəticələrinə uyğun olaraq hazırlanmış risk qiymətləndirilməsi üçün zəruri olan statistik və digər məlumatların təqdim edilməsi üzrə müvafiq sorğu anketləri işçi qrupunun üzvlərinin təmsil etdiyi qurumlar - prokurorluq və digər hüquq-mühafizə orqanlarına göndərilib.

Qeyd olunan sorğular prokurorluq orqanlarının fəaliyyətinə aid bəndlər üzrə cavablandırılması məqsədilə Baş Prokurorluğun, habelə Baş İdarənin aidiyyəti struktur qurumlarına göndərilmiş, nəticədə aparılmış müvafiq ümumiləşdirmə əsasında risk qiymətləndirilməsi üçün zəruri olan statistik və digər məlumatlar elektron formatda Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə göndərilmişdir.

Dünya Bankının metodologiyası əsasında statistik və digər zəruri məlumatların siyahısı formalaşdırılmış və cavablandırma məqsədilə Koordinasiya Şurasında yer alan qurumlara təqdim edilmişdir. Aidiyyəti qurumlar tərəfindən təqdim edilən müvafiq statistik və digər zəruri məlumatların təhlilləri aparılmışdır. Hazırda yekun MRQ hesabatının ilkin layihəsi hazırlanır.

Bəndi üzrə qiymətləndirmə: **6 bal**

"Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və

[54] https://economy.gov.az/article/koordinasiya-shurasinin-ilk-iclasi-kechirilib/31461
[55] http://www.iqtisadi.az/az/moneyval-azerbaycanin-qiymetlendirilmesinin-5-ci-merhelesine-hazirlasir/

terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş nəzarət orqanlarının nəzarət etdikləri monitorinq iştirakçılarına və monitorinqdə iştirak edən digər şəxslərə münasibətdə illik sahəvi risk qiymətləndirilməsi aparmaları və nəticələr barədə maliyyə monitorinqi orqanını məlumatlandırmaları

**İcra edir**:Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
**Tövsiyə edilir**: Mərkəzi Bank, Auditorlar Palatası, Vəkillər Kollegiyası
**İcra müddəti:** 2020-2021-ci illər
**İndikatorlar:** Sahəvi risk qiymətləndirilməsi ilə əlaqədar təqdim edilən illik məlumatlar

Maliyyə Monitorinqi Xidməti tərəfindən lombardlara və rieltorlara münasibətdə müvafiq risk qiymətləndirməsi tamamlanmışdır. MRQ çərçivəsində nəzarət orqanlarından əldə edilmiş məlumatlar üzrə Maliyyə Monitorinqi Xidməti tərəfindən təhlillər aparılmışdır. Bundan başqa Ədliyyə Nazirliyi tərəfindən 2021-ci ilin fevral ayında aidiyyəti məlumatlar Maliyyə Monitorinqi Xidmətinə təqdim edilmişdir. Qiymətləndirmə nəticələrinin yekun MRQ hesabatına daxil edilməsi nəzərə tutulur.

**3.4. Bəndi üzrə qiymətləndirmə:** ***6 bal***

**3.5.** Cinayət təqibi orqanlarının istintaq aidiyyətinə uyğun olaraq, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına şərait yaradan cinayətlər üzrə illik risk qiymətləndirilməsi aparmaları və nəticələr barədə maliyyə monitorinqi orqanını məlumatlandırmaları

**İcra edir**: Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Komitəsi, Maliyyə Monitorinqi Xidməti
**Tövsiyə edilir:** Baş Prokurorluq
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Risk qiymətləndirilməsinin nəticələrinə dair təqdim edilən illik məlumatlar

Dünya Bankının müvafiq metodologiyası əsasında üstün cinayət növləri üzrə illik risk qiymətləndirilməsinin aparılması üçün sorğu anketləri hazırlanaraq müvafiq cinayət təqibi orqanlarına təqdim edilmişdir. Sorğu anketləri üzrə metodoloji dəstək qismində müvafiq orqanlarla işçi qaydada ikitərəfli görüşlər keçirilmişdir.

Aidiyyəti cinayət təqibi orqanlarından əldə edilmiş məlumatlar üzrə Maliyyə Monitorinqi Xidməti tərəfindən təhlillər aparılmışdır. Qiymətləndirmə nəticələrinin yekun MRQ hesabatına daxil edilməsi nəzərə tutulur.

3.5. Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

3.6 Risk qiymətləndirilməsi metodologiyasına uyğun olaraq nağd pulla, qiymətli kağızlarla, hüquqi şəxslərlə, daşınmaz əmlakla və nəqliyyat vasitələri ilə əməliyyatlardan, idxal-ixrac əməliyyatlarından cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədləri üçün istifadə edilməsi risklərinin, trendlərinin və tipologiyalarının müəyyənləşdirilməsinə dair illik təhlillər aparılması

**İcra edir**: Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi, Maliyyə Monitorinqi Xidməti
**Tövsiyə edilir**: Mərkəzi Bank, Milli Depozit Mərkəzi
**İcra müddəti:** 2020-2021-ci illər
**İndikatorlar:** Hazırlanmış təhlil sənədləri

Nazirlər Kabinetinin 404 nömrəli Qərarının 12-ci, 14-cü və 15-ci bəndləri sözügedən istiqamətlər üzrə risklərin, trendlərin və tipologiyaların müəyyən edilməsi üçün strateji təhlillərin aparılmasını əhatə edir.

Maliyyə Monitorinqi Xidməti tərəfindən sözügedən Qərarda yer alan bir sıra strateji təhlillərin aparılması üçün zəruri metodologiyalar əldə edilərək, habelə icmal konsepsiya sənədləri hazırlanaraq aidiyyəti icraçı qurumlara təqdim edilmişdir.

Sözügedən Qərarın 12.3-cü bəndi ilə Dövlət Gömrük Komitəsi, Mərkəzi Bank və Maliyyə Monitorinqi Xidməti üzərində idxal-ixrac əməliyyatlarında PL/TM hallarına dair strateji təhlilin aparılması tapşırığı müəyyən edilmişdir. Bu çərçivədə Maliyyə Monitorinqi Xidməti tərəfindən zəruri metodologiya təmin edilərək digər həmicraçı qurumlara təqdim edilmişdir. Maliyyə Monitorinqi Xidmətinin həmicraçısı olduğu strateji təhlil üzrə ilkin qiymətləndirmə prosesi tamamlanmışdır. Qiymətləndirmə nəticələrinin yekun MRQ hesabatına daxil edilməsi nəzərə tutulur.

**3.6. Bəndi üzrə qiymətləndirmə:** ***6 bal***

**3.7.** Risk qiymətləndirilməsinin nəticələrinə dair hesabatların açıqlanması və hesabatlar barədə aidiyyəti dövlət qurumlarının, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş nəzarət orqanlarının, monitorinq iştirakçılarının və monitorinqdə iştirak edən digər şəxslərin məlumatlandırılması

**İcra edir**: İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti
**İcra müddəti:** 2020-2021-ci illər
**İndikatorlar:** Risk qiymətləndirilməsinin nəticələri barədə məlumatlandırma tədbirləri

Maliyyə Monitorinqi Xidməti tərəfindən lombardlara və rieltorlara münasibətdə müvafiq risk qiymətləndirməsi tamamlanmışdır. Müvafiq təhlillərin nəticələrinin yekun MRQ hesabatına daxil edilməsi nəzərdə tutulur.

Sahəvi təhlillər və milli risk qiymətləndirməsi tamamlandıqdan sonra nəzarət orqanları və monitorinq subyektlərinin məlumatlandırılması üçün Koordinasiya Şurasının müəyyən etdiyi istiqamətlər üzrə zəruri tədbirlər (hesabatın dərci və görüşlərin keçirilməsi) həyata keçiriləcəkdir.

Eyni zamanda, terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə əsasən barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən yenilənmiş Ümumi Siyahısı Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsində yaradılmış Beynəlxalq Vergi Münasibətləri bölməsinin PL/TMM barədə xüsusi məlumat hissəsinin "Sanksiya tətbiq olunmalı şəxslər" alt-bölməsində yerləşdirilmişdir.

“Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Qanunun tələblərindən irəli gələn qanunvericilik sənədləri, şübhəli əməliyyatların aşkarlanması meyarları, sanksiya tətbiq olunan şəxslərin siyahısı (yeni siyahı təqdim edildikdə və ya ona hər hansı dəyişikliklər edildikdə yenilənir), əməkdaşlıq etməyən ölkələrin siyahısı, “Monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən məlumatların Maliyyə Monitorinqi Xidmətinə təqdim olunan məlumatların və Xidmət tərəfindən monitorinq subyektlərinə göndərilən sorğulara cavabların xüsusi rabitə kanalı vasitəsi ilə “XML” formatında tərtib olunaraq göndərilməsi ilə bağlı sxemlər və onun əlavələri veb-səhifədə qrafik üzrə nəzərdə tutulduğu qaydada yerləşdirilmişdir.

2020-ci ilin ötən dövrü ərzində 18 fevral, 23 fevral, 4 mart, 24 mart, 16 iyul və 18 avqust tarixlərində müvafiq məlumatlar əsasında, Maliyyə Monitorinqi Xidməti tərəfindən yenilənmiş Ümumi Siyahı Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsinin Beynəlxalq Vergi Münasibətləri bölməsinin PL/TMM barədə xüsusi məlumat hissəsinin “Sanksiya tətbiq olunmalı şəxslər” alt-bölməsində yerləşdirilməsi təmin edilmişdir.

2021-ci ildə 19 fevral və 06 aprel tarixlərində müvafiq məlumatlar əsasında, Maliyyə Monitorinqi Xidməti tərəfindən yenilənmiş Ümumi Siyahının Dövlət Vergi Xidmətinin rəsmi internet səhifəsinin Beynəlxalq Vergi Münasibətləri bölməsinin PL/TMM barədə xüsusi məlumat hissəsinin “Sanksiya tətbiq olunmalı şəxslər” alt-bölməsində yerləşdirilməsi təmin edilmişdir.

**3.7.** Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

**3.8.** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin normalarının qanunvericilikdə təsbit edilməsi, o cümlədən benefisiar mülkiyyətçi barədə məlumatların müəyyən edilməsinə dair normativ hüquqi aktların təkmilləşdirilməsi.

**İcra edir**: Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti
**İcra müddəti:** 2020-2021-ci illər
**İndikatorlar:** Hazırlanmış normativ hüquqi aktlar

2014-cü ilin aprel ayında Avropa İttifaqı tərəfindən Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı icra olunur. Proqramın ikinci mərhələsi isə (YİT - II) 2019-cu ildə başlamış və 2021-ci ilə qədər davam edəcək. Layihənin məqsədi Azərbaycanın dövlət orqanlarının Avropa və beynəlxalq standartlara uyğun olaraq çirkli pulların yuyulmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, mübarizə və cinayət yolu ilə əldə edilmiş vəsaitlərin bərpası sahəsində bacarıqlarının artırılmasına yönəlmiş institusional islahatların həyata keçirilməsidir. Maliyyə Monitorinqi Xidmətindən sorğuya cavab olaraq bildirilib ki, layihə çərçivəsində Maliyyə Monitorinqi Xidməti tərəfindən beynəlxalq ekspert cəlb edilməklə “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanun layihələri hazırlanıb.

Azərbaycan Respublikasının qanunvericiliyinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Maliyyə Cinayətləri ilə Mübarizə üzrə Beynəlxalq Qrupunun (FATF) tövsiyələrinə uyğunlaşdırılması məqsədilə 2020-ci ilin yanvar ayında Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Dövlət Vergi Xidmətinin nümayəndələrindən ibarət işçi qrup yaradılıb. İşçi qrupda benefisiar mülkiyyətçinin hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumat hesab

edilməsi, benefisiarın eyniləşdirilməsi, həmin məlumatların ictimaiyyət üçün açıq olub-olmaması və s. bu kimi məsələlər müzakirə edilib[56].

Açıq Hökumət Platformasının üzvü olan QHT-lər, müstəqil ekspertlər benefisiar sahibliyin açıqlanması üzrə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı müzakirələrdə iştirak ediblər. QHT-lərin bununla bağlı təklifləri hökumətə təqdim olunub[57].

Milli qanunvericiliyin müvafiq sahədə beynəlxalq müqavilələr və standartlara uyğunlaşdırılması məqsədilə bir sıra addımlar atılmışdır. Bu çərçivədə Maliyyə Monitorinqi Xidməti tərəfindən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanun layihələri hazırlanmışdır.

Bundan başqa PL/TMM sahəsində beynəlxalq standartların tələblərindən olan paralel maliyyə istintaqı institutunun milli qanunvericiliyə implementasiyası məqsədilə hazırlanmış qanunvericiliyə düzəliş layihəsi razılaşdırma mərhələsindədir.

Eyni zamanda Avropa Şurasının Varşava Konvensiyası (CETS 198) üzrə horizontal qiymətləndirilməsi tamamlanmış maddələrin milli qanunvericiliyə implementasiyasına dair qanunvericiliyə düzəliş layihələri hazırlanmışdır. Bu xüsusda həmçinin Varşava Konvensiyasının digər maddələrinin milli qanunvericiliyə implementasiyasına dair diaqnostika aparılmış və hazırlanmış müqayisəli cədvəl də Koordinasiya Şurası çərçivəsində aidiyyəti üzrə təqdim edilmişdir.

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanun layihələri, habelə Varşava Konvensiyası çərçivəsində hazırlanmış qanunvericiliyə düzəliş layihəsi yuxarı dövlət orqanına təqdim edilmişdir.

Bundan başqa, benefisiar mülkiyyətçi barədə məlumatların müəyyən edilməsinə dair normativ hüquqi aktların təkmilləşdirilməsi məqsədilə Dövlət Vergi Xidməti və Maliyyə Monitorinqi Xidmətinin əməkdaşlarından ibarət işçi qrupu yaradılmış, işçi qrupu tərəfindən Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Kommersiya sirri haqqında", "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanun layihələri, və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman layihələri hazırlanmışdır.

Layihənin ekspert qrupu qeyd edir ki, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının Qanun layihələri, habelə Varşava Konvensiyası çərçivəsində hazırlanmış qanunvericiliyə düzəliş layihəsinin hazırlanmasında ictimai iştirakçılıq təmin edilməmişdir.

**3.8.** ***Bəndi üzrə qiymətləndirmə: 5 bal***

**3.9.** Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığın təmin edilməsi və həyata keçirilən qiymətləndirmə prosedurlarına hazırlığın təmin

[56] https://www.coe.int/en/web/corruption/-/towards-an-improved-framework-for-transparency-of-beneficial-ownership-in-azerbaijan
[57] http://nhmt-az.org/frontend/pages/corruption-inner.php?id=178

edilməsi məqsədilə müvafiq tədbirlər planının hazırlanması.
**İcra edir**: Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Maliyyə Monitorinqi Xidməti və aidiyyəti dövlət qurumları
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Tədbirlər planının qəbul edilməsi

İqtisadiyyat Nazirliyindən sorğuya cavab olaraq bildirilib ki, Avropa Şurasının MONEYVAL Komitəsi tərəfindən aparılacaq V raund qiymətləndirməyə kompleks hazırlıq tədbirləri çərçivəsində Nazirlik tərəfindən beynəlxalq təşkilatlarda iş təcrübəsi olan ekspertlərlə danışıqlar aparılıb və məsləhət xidmətləri müqaviləsi imzalanıb.

MONEYVAL V raund qiymətləndirməsinə kompleks hazırlıq tədbirləri çərçivəsində Maliyyə Monitorinqi Xidməti tərəfindən əməkdaşlıq edilən beynəlxalq ekspert ilə 07-11.12.2020-ci il tarixləri arasında aidiyyəti dövlət qurumlarının, habelə monitorinq subyektlərinin nümayəndələri arasında müsahibə və müzakirələr təşkil olunmuşdur. Ekspert tərəfindən müsahibə və müzakirələrin nəticələri əsasında sınaq qiymətləndirmə hesabatı, bu hesabatın nəticələri əsasında isə Maliyyə Monitorinqi Xidməti tərəfindən tədbirlər planı hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Eyni zamanda, 2020-ci ilin mart ayında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi Siyasəti və İnzibatçılığı Mərkəzinin Vergi Cinayətləri üzrə Katibliyi tərəfindən "Vergi cinayətlərinə qarşı mübarizədə 10 qlobal prinsip" mövzusunda 2017-ci ildə nəşr olunan hesabatın ikinci buraxılışına dair sorğunun cavablandırılması təmin edilmişdir. Bununla yanaşı, beynəlxalq və regional vergi təşkilatlarının üzv olduğu "Vergi Təşkilatları Şəbəkəsi" (NTO) və İtaliyanın Maliyyə Qvardiyasının birgə təşkilatçılığı ilə 2021-ci ildə Roma şəhərində "Vergi cinayətlərinə qarşı mübarizə naminə daha güclü əməkdaşlıq" mövzusunda ilk NTO Konfransı keçirilmişdir. Üzv ölkələr üçün əhəmiyyət kəsb edən və təcrübə mübadiləsi zəruri hesab edilən mövzuların nəzərdən keçirilməsi məqsədilə hazırlanmış sorğu aidiyyəti üzrə cavablandırılmışdır.

Avropa İttifaqının Yaxşı idarəçilik üçün Tərəfdaşlıq (YİT) Proqramının ikinci mərhələsi çərçivəsində icra olunan "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi" layihəsi çərçivəsində 2020-ci ilin 13-17 iyul tarixlərində "Məlumatın təhlili üsulları: Microsoft Power Bİ" mövzusunda, o cümlədən 24 iyul tarixində "Varşava Konvensiyasının Tətbiqi" mövzusunda keçirilmiş təlim kursunda Dövlət Vergi Xidmətinin əməkdaşlarının iştirakı təmin edilmişdir.

2020-ci ilin 7-18 sentyabr tarixlərində OECD-nin Vergi Cinayətlərinin İstintaqı üzrə Beynəlxalq Akademiyası tərəfindən təşkil edilmiş "Maliyyə cinayətlərinin istintaqı" mövzusunda 2 həftəlik proqramda Dövlət Vergi Xidmətinin əməkdaşının iştirakı təmin edilmişdir. Proqram gündəliyinə uyğun olaraq digər mövzularla yanaşı çirkli pulların yuyulması mövzusu da müzakirə edilmişdir.

Avropa Şurasının Bakı Ofisinin müraciəti əsasında 2020-ci ilin 30 noyabr-4 dekabr tarixlərində keçirilmiş "Azərbaycanda Çirkli Pulların Yuyulmasına və Aktivlərin Bərpasına Qarşı Gücləndirmə" layihəsi çərçivəsində onlayn formatda "Taktiki Analiz" mövzusunda keçirilmiş təlimdə Dövlət Vergi Xidmətinin əməkdaşının iştirakı təmin edilmişdir.

2021-ci ilin 12 aprel tarixində Avropa Şurası və Avropa İttifaqı tərəfindən birgə həyata keçirilən "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq II" proqramının Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi" layihəsi çərçivəsində Azərbaycanda aktivlərin bərpası üzrə institusional və qanunvericilik bazasının ətraflı təhlili və tövsiyələri özündə əks etdirən texniki sənədin müzakirəsi məqsədilə keçirilən birgə onlayn görüşdə Dövlət Vergi Xidmətinin əməkdaşlarının iştirakı təmin edilmişdir.

**3.9.** Bəndi üzrə qiymətləndirmə***: 6 bal***

## 4-cü istiqamət (Dövlət xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 54 bal/78%**

**4.1**. Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi

**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Dövlət xidmətlərinin göstərilməsi ilə əlaqədar elektron qaydada əldə olunan və təqdim edilən sənədlərin sayı

"İcbari Tibbi Sığorta üzrə Dövlət Aqentliyi"-nin Sığortaların tibbi kabineti xidmətinin, "Əmlak Məsələləri Dövlət Komitəsi"-nin Daşınmaz əmlak məlumatlarının, Azərbaycan Respublikasının Dövlət Reklam Aqentliyi"-nin ADRA İcazələr sisteminin, Respublika Xammal və Əmtəə Birjasının İnformasıya Portalında yaradılmış elektron hərrac sistemi" ilə Elektron Hərrac Sisteminin portala inteqrasiyası həyata keçirilmiş, eyni zamanda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin "Məcburi köçkün statusu haqqında" arayış xidməti və "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin e-Su portalı MyGov portalında istifadəyə verilib.

Həmçinin, "İcazələrin Alınması və Monitorinq Sistemi"-nin arayışlarının inteqrasiyası[58], seçkilərə təşfiq və məlumatlandırma bildirişlərinin inteqrasiyası təmin edilmiş, bundan başqa, koronavirus pandemiyası dövründə "İcazələrin alınması və monitorinqi sistemi"nin portalda yerləşdirilməsi, habelə bununla bağlı müvafiq bildirişlərin vətəndaşa göndərilməsi təmin edilmiş, müharibə şəraitində və komendant saatı dövründə "İcazələrin alınması və monitorinqi sistemi"nin portalda yerləşdirilməsi, habelə bununla bağlı müvafiq bildirişlərin vətəndaşa göndərilməsi təmin edilib.

Azərbaycan Respublikası ərazisində tanınan xarici diplomlar barədə məlumatlar "myGov" portalı vasitəsilə təklif olunan xidmətlərin siyahısına əlavə edilib[59]. Portalda "Məlumatlarım" hissəsindən "Xarici diplomlarım" bölməsinə keçid edərək, xarici ölkədə alınan ali təhsil ixtisasları haqqında zəruri məlumatları yükləmək mümkündür.

***4.1.*** Bəndi üzrə qiymətləndirmə ***4 bal***

**4.2.** Dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu

[58] https://asan.gov.az/az/media/press-releases/icazelerin-statusu-artiq-mygov-portalinda
[59] https://azertag.az/xeber/Xarici_diplomlari_taninan_sexslerin_melumatlari_myGov_portalina_elave_edilib-1930246

prinsipin sahəvi normativ hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması

**İcra edir**: Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, aidiyyəti dövlət orqanları

**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Qeyd edilən prinsipin təsbit edildiyi normativ hüquqi aktlar, bu prinsipə əsaslanan elektron xidmətlər

Ədliyyə Nazirliyindən sorğuya cavab olaraq bildirilib ki, Nazirlik tərəfindən sahəvi normativ hüquqi aktların, müvafiq əlavə və dəyişikliklərin layihələri Nazirlər Kabinetinə təqdim edilib. Ədliyyə Nazirliyi əməkdaşları ilə layihə ekspertlərinin görüşündə bu layihələr barədə ümumi məlumat verilib.
**4.2.** Bəndi üzrə qiymətləndirmə - **3 bal**

**4.3.** Yerli icra hakimiyyəti orqanlarının vətəndaşların müraciətlərini elektron qaydada qəbul etməsi işinin təkmilləşdirilməsi, habelə yerli icra hakimiyyəti orqanlarının göstərdikləri elektron xidmətlərin sayının artırılması üçün tədbirlər görülməsi

**İcra edir**: Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, yerli icra hakimiyyəti orqanları

**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən yeni elektron xidmətlərin sayı

Yerli icra hakmiyyət orqanları (rayon, şəhər icra hakmiyyəti orqanları) vətəndaşların müraciətlərinin e-mail üzərindən qəbulunu həyata keçirir. Layihə ekspertləri 20 yerli icra hakimiyyətinin bu sahədə işini sınaqdan keçiriblər. Yerli icra hakimiyyətlərinin demək olar ki, hamısının saytı eyni formatda hazırlanıb. Hər birinin saytında “Elektron xidmət” altbölməsi yaradılıb. Bu altbölmələrdə e-qov.az portalına keçid verilib, yaxud tikintiyə icazələrin verilməsi ilə bağlı birpəncərə sisteminə keçid verilib.
**4.3.** Bəndi üzrə qiymətləndirmə **3 bal**

**4.4.** Məhkəmə qərarları ilə dövlət qurumları və yerli özünüidarəetmə orqanlarının inzibati aktlarının ləğv edilməsinin, hərəkət və ya hərəkətsizliklərinin qanunsuz hesab edilməsinin səbəblərinə dair illik ümumiləşdirmələrin keçirilməsi və aidiyyəti orqanlara təqdim edilməsi

**Tövsiyyə edilir**: Ali Məhkəmə

**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Ümumiləşdirmələrin keçirilməsi üzrə tədbirlər

Ali Məhkəmə tərəfindən 2020-ci ildə məhkəmələrdə inzibati mübahisələrə baxılması vəziyyətinə dair aparılmış ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikasının Baş nazirinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının sədrinə təqdim olunaraq məhkəmə mübahisələrinə baxılarkən inzibati orqanların fəaliyyətində aşkar edilmiş “İnzibati icraat haqqında” Qanunun pozuntuları sadalanmaqla inzibati orqanların fəaliyyətinin təkmilləşdirilməsinə yönəlmiş müvafiq tədbirlərin həyata keçirilməsi məsələsinə baxılması xahiş edilib[60]. QHT-lər bu fəaliyyət barədə məlumatlıdırlar.

**4.4. Bəndi üzrə qiymətləndirmə - 6 bal**

[60] http://supremecourt.gov.az/uploads/files/fealiyyet/Hesabat_2020_umumi.pdf

**4.5.** Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilmiş xidmətlərin "ASAN xidmət" indeksi əsasında qiymətləndirilməsinin nəticələri əsasında dövlət xidmətlərinin təkmilləşdirilməsi mexanizminin yaradılması

**İcra edir**: Nazirlər Kabineti, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi

**İcra müddəti:** 2020-2022-ci illər

**İndikatorlar:** Dövlət xidmətlərinin təkmilləşdirilməsinin təşkili üzrə görülən tədbirlər

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli 262 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi tərəfindən "ASAN xidmət indeksi"ni təşkil edən parametrlər rəhbər tutulmaqla, Dövlət Xidmətlərinin Elektron Reyestrinə daxil edilmiş xidmətlərin ildə bir dəfə qiymətləndirilməsi aparılır. Qiymətləndirmə yekunlaşdırıldıqdan sonra nəticələri barədə arayışlar hazırlanaraq xidmət təminatçılarına təqdim olunur və "ASAN xidmət indeksi" üzrə qiymətlər ictimaiyyətə açıqlanır. Qiymətləndirilmənin nəticələri barədə arayış və hesabatlarda xidmət təminatçıları tərəfindən göstərilən xidmətlərin təşkilinin vəziyyəti barədə məlumat, qiymətləndirmənin ballarla və faizlə müəyyən edilən nəticəsi, habelə aşkar edilən nöqsanlar, onların aradan qaldırılması və təkmilləşdirmələrin aparılması ilə bağlı təkliflər təqdim edilir.

2021-ci il üzrə 8 dövlət qurumunda xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmənin aparılması nəzərdə tutulub. İlin sonunda qiymətləndirmənin nəticələri yekunlaşdırılır və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin saytında yerləşdirilir[61].

2019-2020-ci illər üzrə hesabat dövrü ərzində 25 mərkəzi icra hakimiyyəti orqanının 270 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 229 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 55 xidməti daxil olmaqla ümumilikdə 554 xidmət qiymətləndirilmişdir.

Hazırda 31 mərkəzi icra hakimiyyəti orqanının 750 xidməti, 79 yerli icra hakimiyyəti orqanının 2536 xidməti, 25 dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxsin və dövlət adından yaradılan publik hüquqi şəxsin 175 xidməti və 3 büdcə təşkilatının 19 xidməti (ümumilikdə 3480 xidmət) Elektron Reyestrə daxil edilmiş və təsdiq olunmuşdur[62].

25 mərkəzi icra hakimiyyəti orqanının 270 xidməti, Bakı şəhərinin 13 yerli icra hakimiyyəti orqanının 229 xidməti və kommunal xidmətlər göstərən 4 hüquqi şəxsin 55 xidməti daxil olmaqla ümumilikdə 554 xidmətin 2019-2020-ci illərdə "ASAN xidmət indeksi" üzrə qiymətləndirilməsi həyata keçirilmişdir.

"ASAN xidmət indeksi" üzrə qiymətləndirmə nəticələri və sistemdə nəzərdə tutulan yeniliklər barədə 2020-ci ilin 2 noyabr tarixində dövlət qurumları üçün onlayn təqdimat (koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar) keçirilmiş və müzakirələr aparılmışdır. "ASAN xidmət indeksi" üzrə qiymətləndirmə nəticələrinə dair hesabat və arayışlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir.

**4.5.** Bəndi üzrə qiymətləndirmə - **6 bal**

[61] http://www.vxsida.gov.az/media/shares/asanindex19_20.pdf
[62] http://vxsida.az/media/shares/h2020.pdf

**4 6.** İstismarına icazə verilməmiş çoxmənzilli binalarda mənzillərə dair hüquqların qabaqcadan qeydiyyatı mexanizminin təkmilləşdirilməsi və fəaliyyətinin təmin edilməsi, belə mənzillərə dair hüquqların internet informasiya resursu vasitəsilə real vaxt rejimində yoxlanılması üçün müvafiq şərait yaradılması

**İcra edir**: Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Vahid informasiya bazası və yeni mexanizmin fəaliyyətinin təmin edilməsi

Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında"-15 dekabr 2017 - ci il tarixli 918-VQD nömrəli Qanunla daşınmaz əmlakın qabaqcadan qeydiyyatı mexanizmi yeni – daşınmaz əmlakın təminat qeydi mexanizmi ilə əvəz edilmişdir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinə edilmiş müvafiq dəyişiklik nəzərə alınaraq, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" qanun layihəsi hazırlanmış və 07.05.2018-ci il tarixli 189120203447 nömrəli məktubla Ədliyyə Nazirliyinə təqdim edilmişdir.

Həmin layihə qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanuna uyğunlaşdırılması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış digər normativ hüquqi akt layihələri ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 dekabr 2018-ci il tarixli 568 nömrəli Qərarı ilə "Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların nisbətini müəyyənləşdirən bölünmə planının razılaşdırılması Qaydası" təsdiq edilmişdir. Qayda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 144.5-ci maddəsinə uyğun olaraq tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların nisbətini müəyyənləşdirən bölünmə planının hazırlanmasını, razılaşdırılmasını və notarius tərəfindən təsdiq edilməsini tənzimləyir.

Odur ki, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 15 dekabr 2017-ci il tarixli 918-VQD nömrəli Qanuna və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 dekabr 2018-ci il tarixli 568 nömrəli Qərarına uyğun olaraq bölünmə planı və həmin plana əsasən mülkiyyətdəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında notariat qaydasında təsdiq edilmiş müqavilələr qeydiyyat orqanına təqdim olunacağı təqdirdə sonuncu tərəfindən səlahiyyətləri çərçivəsində müvafiq tədbirlərin görülməsi təmin olunacaqdır.

Layihə ekspertlərinin İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə görüşündə məlumat verilib ki, barəsində təminat qeydinin aparılacağı mənzillər haqqında məlumatların müvafiq internet informasiya resursu vasitəsilə təqdim edilməsi məsələsinə baxılması və bu istiqamətdə müvafiq tədbirlərin görülməsi təmin olunacaqdır.

**4.6.** Bəndi üzrə qiymətləndirmə***: 3 bal***

**4.7.** Elektron Hökumət infrastrukturunun təkmilləşdirilməsi və Elektron Hökumət İnformasiya Sisteminə qoşulan informasiya sistemləri və ehtiyatlarının sayının artırılması

**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial

İnnovasiyalar Agentliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** "Elektron hökumət informasiya sistemi"nə qoşulan informasiya sistemləri və ehtiyatlarının sayı

2020-ci il ərzində portalın texniki-texnoloji infrastrukturu üzrə verilənlər bazasında optimallaşdırma işlərinin aparılması nəticəsində portalın bazasının fəaliyyəti təkmilləşdirilmiş və fiziki dayanıqlılığı artırılmış, eləcə də portalın şəbəkəsi yenilənmişdir. Ümumilikdə portala inteqrasiya edilmiş 38 qurum üzrə 443 elektron xidmət portal tərəfindən vətəndaşlara təqdim edilir. Hazırda portalda 1 267 374 nəfərdən çox istifadəçi mövcuddur. İstifadəçilər hesabat ilində hər ay üzrə orta hesabla 3 173 527 dəfədən çox portaldan istifadə etmişdir[63].

2021-ci il fevral ayında "myGov" elektron hökumət portalının mobil tətbiqi istifadəyə verilib. "myGov" şəxsi kabinet əsaslı elektron hökumət portalında istifadəçi sayı 700 mini keçib[64]. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən yaradılan və idarə edilən "myGov"da istifadəçi sayı 2021-ci ilin əvvəlinə nisbətən 1,6 dəfə, 2020-ci ilin əvvəlinə nisbətən isə 16 dəfə artıb.

2021-ci ilin oktyabr ayına olan məlumata görə, proaktiv elektron xidmət göstərən "myGov" platformasına inteqrasiya olunan sistemlərlə birlikdə "myGov" 710 xidmətə giriş təmin edir.
2021-ci ildə "myGov"a COVID-19 vaksin və immunitet sertifikatları inteqrasiya olunub. Vətəndaşlar şəxsi kabinetlərində yerləşdirilmiş sənədinin QR kodu oxutdurmaqla COVID-19 pasportu tələb olunan qurum və müəssisələrə rahat daxil ola bilirlər.

Bəndi üzrə qiymətləndirmə: **6 bal**

**4.8.** "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması üçün tədbirlər görülməsi, sistemin ölkənin bütün regionlarında olan məhkəmələrdə tətbiqinin təmin edilməsi

**İcra edir**: Ədliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə yeni funksiyaların yerinə yetirilməsi və sistemin bütün məhkəmələri əhatə etməsi üzrə görülən tədbirlər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 13 fevral tarixli sərəncamında"Elektron məhkəmə" informasiya sisteminin yaradılması təsbit olunub.
Hazırda ölkə ərazisində fəaliyyət göstərən 117 məhkəmənin 77-də, başqa sözlə, üçdə ikisində məhkəmə sistemi tətbiq olunur və 2022-ci ildən bütün məhkəmələri əhatə etməsi nəzərdə tutulur.[65] Bütün məhkəmə qərarlarının elektron dərc olunması təmin edilir və bu zaman şəxsi həyat sirrinin qorunması üçün xüsusi proqramla onlar anonimləşdirilir.

Layihənin ekspert qrupunun Ədliyyə Nazirliyinin əməkdaşları ilə keçirilən görüşündə bu məlumatlar təqdim edilib.

---

63 http://vxsida.az/media/shares/h2020.pdf
64 https://www.e-gov.az/az/news/read/815

65 https://report.az/daxili-siyaset/gelen-il-azerbaycanda-butun-mehkemelerde-elektron-sistem-tetbiq-olunacaq/

**4.8.** Bəndi üzrə qiymətləndirmə: **5 bal**

**4.9.** Fiziki və hüquqi şəxslərə "Elektron notariat" və "Elektron icra" informasiya sistemləri vasitəsilə göstərilən elektron xidmətlərin sayının artırılması.

**İcra edir**: Ədliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Elektron xidmətin yaradılması ilə bağlı tədbirlər

2019-cu ildə Ədliyyə Nazirliyi tərəfindən "Mobil notariat" tətbiqi (aplikasiyası) istifadəyə verilib[66]. Hazırda 200000-ə yaxın istifadəçisi olan "Mobil notariat"ın funksionallığının artırılması üzrə işlər davam etdirilərək mobil telefon vasitəsilə müxtəlif qurumlarda, o cümlədən dövlət orqanları, idarə, təşkilat və müəssisələrdə, hüquqi şəxslərdə, kommunal xidmət göstərən qurumlarda, mobil operatorlarda təmsilçiliyə dair etibarnamələrin verilməsi imkanı yaradılıb.

Vərəsəlik hüququnun rəsmiləşdirilməsi üçün digər şəxslərə bununla bağlı işlərin aparılması səlahiyyətini verən etibarnamələr də əlavə edilib.

"Mobil notariat" tətbiqi üzərindən daşınmaz əmlaka sərəncam verilməsinə dair ər -arvadın və həmin ünvanda qeydiyyatda olan şəxslərin razılıq ərizələrinin elektron qaydada rəsmiləşdirilməsi mümkündür.

"Mobil notariat"dan istifadənin daha rahat həyata keçirilməsi üçün qeydiyyat proseduru sadələşdirilib, artıq Azərbaycan Respublikasının vətəndaşları olduqları yerdən asılı olmayaraq videoyazı vasitəsilə müraciət edərək qeydiyyatdan keçə bilərlər.

"Elektron notariat" və "Elektron məhkəmə" informasiya sistemləri arasında təşkil edilmiş inteqrasiya əsasında rəsmiləşdirilmiş bütün etibarnamələr barədə məlumatların məhkəmələr tərəfindən elektron qaydada əldə edilməsi təmin olunmuşdur.

Bankların ədliyyə xidmətlərinə əlçatanlığının yaxşılaşdırılması üçün pilot layihə qaydasında məsafədən notariat xidmətlərinin göstərilməsini təşkil etmək məqsədi ilə banklarda "Elektron notariat kabinələri" fəaliyyətə başlamışdır. Eyni xidmətlər həmçinin "DOST" mərkəzlərində də təşkil olunmuşdur[67].

Elektron icra" informasiya sistemi hazırda məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar borcların, o cümlədən aliment, kredit, cərimə və digər ödənişlərin "ASAN ödəniş" və "Elektron hökumət" portalları, eləcə də müxtəlif mobil tətbiqlər vasitəsilə nağdsız həyata keçirilməsinə imkan verir[68].

Ölkədən getmək hüququna məhdudiyyət qoyulmuş şəxsin nağdsız qaydada və ya terminallar vasitəsilə icra üzrə borcunu ödədiyi təqdirdə məlumat real vaxt rejimində Dövlət Sərhəd Xidmətinə ötürülür və həmin məhdudiyyət avtomatik aradan qaldırılır.

Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

Dövlət qurumlarının informasiya ehtiyatlarında şəxsin ona aid olan məlumatları dəqiqləşdirməsi

[66] https://www.justice.gov.az/documents/telimat.pdf
[67] https://justice.gov.az/news/2410
[68] https://virtualaz.org/uzbeuz/196150

imkanını təmin edən elektron xidmətin yaradılması
**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, aidiyyəti dövlət qurumları
**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Elektron xidmətin yaradılması ilə bağlı tədbirlər

Bu bənd icra olunmamışdır

*4.10.* Bəndi üzrə qiymətləndirmə: ***0 bal***

**4.11.** "Ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı araşdırma aparılması və pilot layihə həyata keçirilməsi imkanlarının müəyyən edilməsi.

**İcra edir**: Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi
**İcra müddəti:** 2020-2021- ci il
**İndikatorlar:** "Ağıllı şəhər" konsepsiyasının tətbiqi ilə bağlı hazırlanmış təkliflər

19 aprel 2021-ci il tarixdə "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanıb. Sərəncama əsasən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri rəhbər olmaqla dövlət orqanları və şirkətlərinin nümayəndələrindən ibarət İşçi Qrup yaradılıb[69].

26 aprel 2021-ci il tarixdə Azərbaycanın Ermənistan işğalından azad edilmiş Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin əsası qoyulub. "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub[70].

«Ağıllı kənd» layihələri dünyanın müxtəlif ölkələrində reallaşdırılır və məqsədi kənd sakinlərinin həyatını yüngülləşdirmək və yaşayış səviyyəsini yüksəltməkdir. "Ağıllı kənd"in əsas xüsusiyyətlərindən biri odur ki, insan evindən çıxmadan uzaq məsafədən idarə edə biləcəyi geniş texniki imkanlara malik olur. Belə ki, kənd sakini vahid mərkəzdən informasiya sistemlərini idarə etmək, məlumat əldə etmək, iş və digər əməliyyatlar aparmaq, kommunikativ xidmətlər (onlayn danışıqlar aparmaq bacarığı) həyata keçirmək imkanı qazanır. Beləliklə, "ağıllı kənd" sakinləri layihənin formalaşdırdığı avtomatlaşdırılmış mərkəzi sistem sayəsində ciddi vəsait və vaxt sərf etmədən cari məişət problemlərini həll edə bilərlər. Həmçinin, "Ağıllı kənd" layihəsi çərçivəsində mikro biznesin yaradılması üçün kənd sakinlərinə dəstək göstəriləcək.

**Bəndi üzrə qiymətləndirmə:** ***6 bal***

[69] http://e-qanun.az/framework/47263
[70] https://apa.az/az/xeber/daxili-siyaset/Dovlt-bascisi-Zngilan-rayonunda-birinci-agilli-knd-layihsi-icra-edilck-629387

İctimai xarakter daşıyan kommunal, yol, nəqliyyat problemləri, infrastrukturun cari təmiri, abadlaşdırılması və təmizliyi ilə bağlı şikayətlərin elektron xəritə üzərində qeyd edilməklə aidiyyəti dövlət qurumlarına təqdim olunması üçün elektron portalın və müvafiq mobil tətbiqin yaradılması, pilot layihə kimi Bakı şəhərində həyata keçirilməsi

**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Maliyyə Nazirliyi

**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Elektron portalın və pilot layihənin hazırlanması

"ASAN müraciət" informasiya sistemi pilot layihə kimi Sumqayıt şəhərində istifadəyə verilib. Sumqayıt şəhər sakinləri bu sistemin imkanlarından yararlana bilirlər. Sistem qısa müddətdə ölkə ərazisini əhatə edəcək.

Pilot layihədə icraçı təşkilat qismində doqquz qurum iştirak edir:

1. Sumqayıt Şəhər İcra Hakimiyyəti
2. "Azəriqaz" İstehsalat Birliyi
3. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti
4. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
5. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti
6. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi
7. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
8. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi
9. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

Mobil tətbiqi "Android" və "iOS" əməliyyat sistemlərindən yükləmək mümkündür.

İctimai xarakter daşıyan kommunal, yol, nəqliyyat problemləri, infrastrukturun cari təmiri, abadlaşdırılması və təmizliyi, yaşıl ərazilərin mühafizəsi ilə bağlı şikayətlərin vahid elektron portal üzərindən qəbulu və müvafiq dövlət orqanlarının diqqətinə çatdırılması, həlli üçün vəkillik işi aparılması məqsədilə Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi (ECSOFT) çərçivəsində Onlayn İctimai Nəzarət Platforması – enezaret.az yaradılıb[71]. 2022-ci il üzrə ikinci rübün nəticələrinə görə daxil olmuş müraciətlərin təxminən 70%-i həllini tapıb[72].

4.12. Bəndi üzrə qiymətləndirmə: **6 bal**

## 5- ci istiqamət (Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişləndirilməsi, ictimai nəzarətin və ictimai iştirakçılığın artırılması sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 27 bal/77.78%**

[71] https://www.enezaret.az/haqqimizda
[72] https://report.az/infrastruktur/onlayn-ictimai-nezaret-platformasi-ikinci-rubun-neticelerini-aciqlayib/

**5.1.** Açıq Hökumət prinsiplərinə müvafiq olaraq vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə tədbirlər görülməsi, qeyri- hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin artırılması.

**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası
**İcra müddəti:** 2020-2022- ci illər
**İndikatorlar:** Qeyri-hökumət təşkilatlarının cəlb edildiyi tədbirlərin və dəstəklənmiş layihə və təşəbbüslərinin sayı

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2020-ci ildə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası ilə birgə və fərdi olaraq Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizəyə dair 2 qrant müsabiqəsi elan edib. Müsabiqə nəticələrinə əsasən 15 QHT layihəsinə 136 500 (yüz otuz altı min beş yüz) manat maliyyə ayrılıb.[73].

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının verdiyi qrantla Konstitusiya Araşdırmalar Fondu tərəfindən QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericiliyə dair, həmçinin QHT-lərin maliyyələşməsi sahəsində yeni qabaqcıl üsul və vasitələrin tətbiqinə maneə olan normaların aradan qaldırılması ilə bağlı təhlil aparılmış, aparılan təhlil nəticəsində təkliflər paketi hazırlanaraq müvafiq dövlət qurumlarına təqdim olunmuşdur.

2020-ci ildə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən Açıq Hökumət Platformasının fəaliyyəti dəstəklənib. Platformanın www.ogp.org.az saytının Azərbaycan və ingilis dillərində fəaliyyəti təmin edilib. Platformanın fəaliyyətinə dair Azərbaycan, rus, ingilis dillərində kitabça nəşr edilib. Platformanın məqsədləri, missiyası, fəaliyyəti ilə bağlı KİV - də 10 maarifləndirici məqalə dərc olunub. Platformanın "Açıq hökumət" onlayn televiziyasının fəaliyyəti də davam etdirilib. Belə ki, bu müddət ərzində TV-də Açıq hökumət islahatları mövzusunda 8 canlı yayım, 5 debat, 3 müsahibə yayımlanıb. Platforma üzvləri üçün "Monitorinq alətləri və üsulları mövzusunda" vebinar təşkil olunub. Platformanın üzvləri olan QHT - lərin iştirakı ilə "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın müzakirəsinə dair konfrans keçirilib[74].

***5.1. Bəndi üzrə qiymətləndirmə: 6 bal***

***5.2.*** Qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatının sadələşdirilməsi, elektronlaşdırılması və təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması və qəbul edilməsi.

---

[73] http://cssn.gov.az/documents/Korrupsiyaya%20qar%C5%9F%C4%B1%20m%C3%BCbariz%C9%99%20%C3%BCzr%C9%99%20Komissiyas%C4%B1-Maliyy%C9%99l%C9%99%C5%9F%C9%99n%20layih%C9%99l%C9%99r.pdf

[74] pdf

**İcra edir**: **İcra edir**: Ədliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Hazırlanmış təkliflər paketi və qəbul edilmiş normativ hüquqi aktlar

Ədliyyə Nazirliyi tərəfindən "Fərdi elektron pəncərə" elektron məlumat sisteminin yeni versiyası hazırlanıb, test rejimində istifadəyə verilib. Sistemdə təşkil olunmuş yeni elektron xidmətlər QHT-lərin təsis sənədlərində edilmiş, habelə qeydiyyata alınmış reyestr məlumatlarının dəyişdirilməsi faktlarının dövlət qeydiyyatı, həmçinin maliyyə vəsaitlərinin ayrılmasına dair sənədlərin elektron qaydada nazirliyə təqdim edilməsini və qeydiyyat barədə sənədlərin elektron qaydada əldə olunmasını mümkün edir. Eyni zamanda QHT-lərin dövlət qeydiyyatına dair sənədlərin, habelə qrantların və xidmət müqavilələrinin qeydiyyatı haqqında bildirişlərin elektron qaydada təqdim edilməsi mümkün olacaqdır. Həmçinin, qeyri-kommersiya qurumlarının dövlət qeydiyyatı üçün zəruri olan sənədlər barədə məlumatın vətəndaşdan tələb edilmədən əldə edilməsinə imkan yaranıb.

30 iyun 2020-ci il tarixdə parlament "İctimai birliklər və fondlar haqqında". "Qrant haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunlara dəyişiklikləri qəbul edib[75]. Nazirlər Kabineti isə 07 may 2021-ci ildə "Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası" və "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"na dəyişiklik edib.

Ədliyyə Nazirliyi isə 15 iyul 2021-ci il tarixdən "Fərdi elektron pəncərə" sistemi vasitəsilə təsis sənədlərinə edilən dəyişikliklərin dövlət qeydiyyatı və onlar tərəfindən qəbul edilən və verilən maliyyə vəsaitlərinin qeydə alınması və müvafiq çıxarışların, bildirişlərin elektron qaydada verilməsinin sınağına başlamışdır. Bununla bağlı Nazirliyin saytında elan verilmişdir[76].

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi QHT qanunvericiliyində dəyişikliklərlə bağlı təkliflər hazırlayıb. Təkliflər qrantlarla maliyyələşən layihələrin qeydiyyatının sadələşdirilməsi, QHT-lərin qeydiyyata alınması prosedurunun təkmilləşdirilməsi və bununla bağlı digər sənədləşmələrin asanlaşdırılmasını əhatə edir. Təkliflər Agentlik adından Prezident Administrasiyasına təqdim edilib[77].

QHT-lər, hüquq-müdafiəçiləri, Açıq Hökumət Platforması üzvləri QHT qanunvericiliyinə dəyişikliklərlə bağlı prosesə cəlb olunubvə bu təkliflərin hazırlanmasında fəal iştirak ediblər. Gözlənilir ki, 2022-ci il parlamentin yaz sessiyası dövründə QHT qanunvericiliyinə dəyişikliklər müzakirə olunacaq.

Bəndi üzrə qiymətləndirmə: **4 bal.**

**5.3.** Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması prosedurlarının sadələşdirilməsi, elektronlaşdırılması və təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması və qəbul edilməsi.

**İcra edir**: **İcra edir**: Ədliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2021- ci illər

75 https://meclis.gov.az/documents/legislation/158-VIQD%2030.06.2020.pdf
76 https://www.justice.gov.az/news/2472
77 https://report.az/daxili-siyaset/azerbaycanda-qht-lerle-bagli-qanunvericiliye-deyisiklikler-layihesi-hazirlanir/

**İndikatorlar:** Hazırlanmış təkliflər paketi və qəbul edilmiş normativ hüquqi aktlar

Azərbaycan Açıq Hökumət Platforması tərəfindən qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatının sadələşdirilməsi ilə bağlı təkliflər paketi hazırlanmış, Prezident Administrasiyasına və parlamentə təqdim olunmuşdur.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi QHT qanunvericiliyində dəyişikliklərlə bağlı təkliflər hazırlayıb. Təkliflər qrantlarla maliyyələşən layihələrin qeydiyyatının sadələşdirilməsi, QHT-lərin qeydiyyata alınması prosedurunun təkmilləşdirilməsi və bununla bağlı digər sənədləşmələrin asanlaşdırılmasını əhatə edir. Təkliflər Agentlik adından Prezident Administrasiyasına təqdim edilib.

QHT-lər, hüquq-müdafiəçiləri, Açıq Hökumət Platforması üzvləri QHT qanunvericiliyinə dəyişikliklərlə bağlı prosesə cəlb olunublar. Bu təkliflərin hazırlanmasında fəal iştirak ediblər. Gözlənilir ki, 2022-ci il parlamentin yaz sessiyasında QHT qanunvericiliyinə dəyişikliklər müzakirə olunacaq.

30 iyun 2020-ci il tarixdə parlament "İctimai birliklər və fondlar haqqında". "Qrant haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunlara dəyişiklikləri qəbul edib[78]. Nazirlər Kabineti isə 07 may 2021-ci ildə "Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası" və "Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndələri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"na dəyişiklik edib. Bu dəyişikliklər elektron məlumat sistemi vasitəsilə təsis sənədlərinə edilən dəyişikliklərin dövlət qeydiyyatı və onlar tərəfindən qəbul edilən və verilən maliyyə vəsaitlərinin qeydə alınması və müvafiq çıxarışların, bildirişlərin elektron qaydada verilməsinə imkan yaradır.

Bəndi üzrə qiymətləndirmə: ***3 bal***

Dövlət orqanlarında kollegial qərarların qəbulu prosedurlarında, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının iştirakının və təmsilçiliyinin genişləndirilməsi

**İcra edir**: Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları
**Tövsiyyə edilir:** Milli Məclis
**İcra müddəti:** 2020-2021-ci illər
**İndikatorlar:** Qeyri-hökumət təşkilatlarının iştirakının genişləndirilməsi ilə bağlı hazırlanmış təkliflər, qeyri-hökumət təşkilatlarının iştirakının təmin edildiyi iclasların, işçi qrupların və komissiyaların sayı

Ədliyyə Nazirliyi tərəfindən "İctimai iştirakçılıq haqqında" Qanuna əlavə və dəyişiklikləri nəzərdə tutan qanun layihəsi hazırlanıb. Qanun layihəsi Nazirlər Kabinetinə təqdim edilib. Qanun layihəsi ilə dövlət orqalarında kollegial qərarların qəbulunda vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə bağlı prosedurların müəyyənləşməsi nəzərdə tutulub. Layihənin ekspert qrupu Ədliyyə Nazirliyinin

[78] https://meclis.gov.az/documents/legislation/158-VIQD%2030.06.2020.pdf

əməkdaşları ilə görüşdə bu qanun layihəsi ilə bağlı müzakirələr aparıblar. Lakin QHT-lər bu prosesə cəlb edilməyiblər.

Hazırda QHT-lər Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın İşçi Qruplarında, Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İşçi Qruplarında, Əfv Komissiyasında, Dövlət Statistika Komitəsi yanında Statistika Şurasında təmsil olunurlar.

Bəndi üzrə qiymətləndirmə: ***3 bal***

İctimai şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi

**İcra edir**: Mərkəzi və yerli icra hakimiyyət orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** İctimai şuraların fəaliyyəti ilə bağlı məlumatlar

2020-ci ildən başlayaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları yanında İctimai Şuraların yaradılması prosesi sürətlənmişdir. 2020-ci il 15 sentyabrda Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın yeni tərkibdə ilk iclası keçirilib. İclasda İctimai Şuraların yaradılması ilə bağlı işlərin sürətləndirilməsinə dair dövlət orqanlarına tapşırıqlar verilib.

Hazırda 13 nazirlik, 4 dövlət komitəsi, 1 dövlət agentliyi, 2 publik hüquqi şəxs, 2 nəzarət səhm paketi dövlətə məxsus açıq səhmdar cəmiyyətdə, 79 yeri icra hakmiyyəti orqanı yanında İctimai Şuralar yaradılıb. Bununla belə yerli icra hakmiyyəti orqanlarının saytlarında bu barədə məlumatlar əks etdirilməyib.

Bir nazirlik, iki dövlət komitəsi İctimai Şuralara seçkilərlə bağlı prosedurlara başlayıblar. Daha iki nazirliyin- Maliyyə Nazirliyi və Müdafiə Nazirliyinin yaxın zamanda bu prosesə başlayacağı gözlənilir.

ECSOFT layihəsi çərçivəsində Azərbaycanda ilk dəfə İctimai Şuralar üçün vahid onlayn platform - ictimaishura.az[79]- yaradılıb. Platforma üzərindən İctimai Şuralara keçirilən seçkilər haqqında məlumatlar verilir, seçki dövründə maarifləndirmə kampaniyası, mövzular ilə bağlı debatlar təşkil olunur, ictimaiyyət məlumatlandırılır. Saytında İctimai Şuraların məlumatlarının müstəqil yenilənməsi üçün funksionalıq təmin olunub və hər bir ictimai şura üçün subsaytlar formalaşdırılıb.

Bəndi üzrə qiymətləndirmə: ***5 bal***

Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində mütəmadi müzakirələrin keçirilməsi və Platformanın fəaliyyətinin dəstəklənməsi
**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, mərkəzi və yerli icra hakimiyyət orqanları, dövlət adından yaradılmış publik hüquqi şəxslər

[79] https://ictimaishura.az/aboutus/az

**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Platformanın fəaliyyətinin təmin edilməsi üzrə tədbirlər

Azərbaycan Açıq Hökumət Platforması dövlət orqanlarının sifarişi əsasında Xarici İşlər Nazirliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Energetika Nazirliyi, Bakı Nəqliyyat Agentliyinin, Mənzil İnşaatı Dövlət Agentliyinin əməkdaşları üçün Korrupsiyaya hüquqpozmaları və onlara qarşı mübarizə", "Etik davranış qaydaları" mövzularında təlim keçib. Bu təlimlərin bir qismi ECSOFT layihəsi çərçivəsində həyata keçirilib.

Təlimlərdə dövlət orqanları və publik hüquqi şəxslərin 400-dən çox əməkdaşı iştiark edib.

"Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli Fərmanı ilə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ləğv edilib və yeni qurum, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradılıb[80]. Agentlikdən sorğuya cavab olaraq bildirilib ki, 2022-ci il üzrə qrant müsabiqələrinin təşkili zamanı MFP-nin 1.6-ci bəndi ilə nəzərdə tutulmuş fəaliyyəti icrası üçün zəruri tədbirlər görüləcək.

2020-ci il ərzində Açıq Hökumətin təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoq Platforması 4 dəfə onlayn toplantı keçirib. Toplantılar zamanı ölkədə həyata keçirilən Açıq hökumət islahatları, aktual ictimai əhəmiyyətli məsələlər, *Açıq Hökumətin* təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planın qəbulu və icrası məsələləri müzakirə olunub.

2020-ci il ərzində dövlət orqanları ilə əməkdaşlıq genişlənib. Azərbaycan Dövlət Reklam Agentliyi Platformaya üzvlük üçün müraciət edib.

Platforma Dövlət Statistika Komitəsi və Azərbaycan Dövlət Reklam Agentliyinin əməkdaşlarına ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən, ABŞ-ın FHI360 Qeyri-Kommersiya Təşkilatının MG Consulting MMC-nin icra etdiyi Şəffaflıq Naminə Vətəndaş Cəmiyyəti Layihəsi (ECSOFT) layihəsinin dəstəyi antikorrupsiya təlimləri keçirilib. Təlimlər "Korrupsiyaya hüquqpozmaları və onlara qarşı mübarizə" və "Etik davranış qaydaları" mövzusunda keçirilib.

Platforma Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planının icrası ilə əlaqədar konsultasiya verib. AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası Platformaya iki dəfə instituisonal və proqram dəstəyi verib. Bu layihələr çərçivəsində Platformanın 6 ay müddətində ofis icarəsinin və Platforma katibinin əmək haqqının bir qismi ödənilib. Platformanın saytının Azərbaycan və İngilis dillərində fəaliyyəti təmin edilib. Platformanın Azərbaycan, Rus, İngilis dillərində broşuru nəşr edilib.

AR Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasını dəstəyi ilə Platformanın Açıq Hökumət TV-nin fəaliyyəti davam etdirilib. Platformanın üzvü olan təşkilatların (İnformasiya Təhlil və Planlaşdırma İB, İctimai Maraqlar Naminə Vətəndaş Təşəbbüsləri İB) layihələri əsasında Açıq hökumət islahatları mövzusunda 8 canlı yayım, 5 debat, 3 müsahibə yayımlanıb. 5 maarifləndirici məqalə dərc olunub. Platforma üzvləri üçün "Monitorinq alətləri və üsulları mövzusunda" vebinar təşkil olunub.

Vətəndaş cəmiyyəti QHT-lər üçün "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı və onu icrasında ictimai iştirakçılıq" mövzusunda onlyan konfrans keçirilib. Konfrans açıq olub və arzu edən hər bir QHT-nin iştirakı üçün imkanlar yaradılıb.

[80] https://president.az/articles/51178

**5.6.** Bəndi üzrə qiymətləndirmə **6 bal**

## 6- ci istiqamət (İnformasiya əldə edilməsinin təmin olunması sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 9 bal/41.67%**

**6.1.** İnformasiyanın açıqlanması prosedurlarının təkmilləşdirilməsi, habelə açıq məlumatlardan istifadə edilməsini təmin etmək üçün müvafiq mexanizm və şərtlərin müəyyən edilməsi ilə bağlı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununda və digər qanunvericilik aktlarında dəyişiklik edilməsi ilə bağlı təkliflər hazırlanması.

**İcra edir**:Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Təqdim edilmiş normativ hüquqi aktların layihələri

Ədliyyə Nazirliyi tərəfindən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, İnsan hüquqları üzrə müvəkkilin (Ombudsmanın) çoxsaylı təklifləri nəzərə alınmaqla "İnformasiya əldə etmək haqqında" Qanuna dəyişiklik barədə qanun layihəsi hazırlanıb. Açıq Hökumət Platforması bu qanuna əlavə və dəyişikliklərlə bağlı müzakirələrdə iştirak edib. Platforma öz təkliflərini təqdim edib. Bununla belə hələ ki, "İnformasiya əldə etmək haqqında" Qanuna dəyişikliklər layihəsi ictimaiyyətə təqdim olunmayıb.

***6.1. Bəndi üzrə qiymətləndirmə: 3 bal***

***6.2.*** İnformasiyanın açıqlanması məqsədilə beynəlxalq standartlara uyğun məlumat toplularının formalaşdırılması ilə bağlı qaydaların müəyyən edilməsi

**İcra edir**: Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
**İcra müddəti:** 2020-2021- ci illər
**İndikatorlar:** Hazırlanmış qaydalar

Ədliyyə Nazirliyi informasiya sorğusunda cavab olaraq bildirmişdir ki, beynəlxalq standartlara uyğun məlumat toplularının formalaşdırılmasına dair qaydaların hazırlanması məqsədilə təkliflərin təqdim olunması ilə bağlı Ədliyyə Nazirliyi tərəfindən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə, İnsan hüquqları üzrə müvəkkilə (Ombudsmana) və digər aidiyyəti struktur qurumlarına müraciət olunub. Bu qurumlardan daxil olmuş təkliflərin təhlili nəticəsində qanunvericiliyə dəyişikliklərlə bağlı qanun layihəsi hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib.

***6.2.*** Bəndi üzrə qiymətləndirmə ***3 bal***

**6.3.** Dövlət qurumlarının rəsmi internet informasiya ehtiyatlarında "Açıq məlumatlar" bölməsinin yaradılması

**İcra edir**: Mərkəzi və yerli icra hakimiyyəti orqanları
**İcra müddəti:** 2021-2022- ci illər
**İndikatorlar:** Müvafiq bölmənin yaradılması ilə bağlı tədbirlər

Bu tədbir icra olunmayıb

Bəndi üzrə qiymətləndirmə **0 bal**

İnformasiyanın açıqlanması ilə bağlı tələblər, habelə açıq məlumatlardan istifadənin genişləndirilməsinin faydaları barədə ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi üçün qeyri-hökumət təşkilatlarına dəstək verilməsi

**İcra edir**: Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası
**İcra müddəti:** 2020-2022- ci illər
**İndikatorlar:** İnformasiyanın açıqlanması ilə bağlı tələblər, habelə açıq məlumatlardan istifadənin genişləndirilməsinin faydaları barədə ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi üçün Müvafiq bölmənin yaradılması ilə bağlı tədbirlər

Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi layihələr çərçivəsində ''İnformasiya əldə etmək haqqında" Qanunun tələblərinə uyğun olaraq açıqlanması zəruri olan məlumatlar ilə bağlı Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının Hesablama Palatasının rəsmi saytları monitorinq olunmuşdur. Bununla yanaşı, bu qurumlara informasiya sorğuları verilib və cavabların verilməsi zamanı qanunvericiliyin tələblərinə hansı səviyyədə əməl olunması monitorinq edilmişdir. Ümumilikdə dövlət büdcəsinin icrası ilə bağlı hesabatlılığın, ictimai iştirakçılığın vəziyyəti təhlil edilərək təhlilin nəticələri Gürcüstan, Ukrayna, Türkiyə təcrübələri ilə müqayisə edilmişdir.

Həmçinin, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikasının Təhsil Nazirliyinin, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, TƏBİB, "Azərenerji" ASC-nin rəsmi internet saytları monitorinq olunmuş və onların informasiyanı açıqlama səviyyələri təhlil edilmişdir. Eyni zamanda, "Vətəndaşların açıq məlumatlardan istifadə imkanları", "Dövlət xidmətləri haqqında məlumatları haradan əldə etmək olar?", "Vətəndaşlar üçün faydalı açıq məlumatlar" mövzusunda maarifləndirici işlər həyata keçirilmişdir.

**6.4.** Bəndi üzrə qiymətləndirmə **3 bal**

## 7- ci istiqamət (Yerli özünüidarəetmədə hesabatlılığın, aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 13 bal/54.17%**

**7.1.** Bələdiyyələrin milli assosiasiyalarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə daimi fəaliyyət göstərən ictimai şuranın yaradılması.

**İcra edir**: Ədliyyə Nazirliyi
**Tövsiyə edilir:** Bələdiyyələrin milli assosiasiyaları
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** İctimai şuranın yaradılması və fəaliyyətinin təmin edilməsi üzrə tədbirlər

Ədliyyə Nazirliyi tərəfindən sorğuya cavab olaraq bildirilib ki, ictimai şuraların yaradılması üzrə sənədlər hazırlanıb. Lakin COVİD-19 pandemiyası və müharibə şəraiti ilə əlaqədar ictimai şuralara seçkilərin keçirilməsi mümkün olmamışdır.

***7.1. Bəndi üzrə qiymətləndirmə: 1 bal***

Kütləvi informasiya vasitələrindən, internet informasiya ehtiyatlarından istifadə etməklə yerli büdcənin hesabatlılığının təmin edilməsi

**İcra edir**: Ədliyyə Nazirliyi,
**Tövsiyə edilir**: Bələdiyyələrin milli assosiasiyaları
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Yerli büdcələr barədə məlumatların ictimaiyyətə çatdırılması üzrə tədbirlər

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 4-cü hissəsinə əsasən bələdiyyə üzvü 6 ayda bir dəfədən az olmayaraq seçiciləri qarşısında hesabat verir. Bu Qanunun 17-ci maddəsinin 5-ci hissəsinə görə daimi və başqa komissiyalar onları seçmiş bələdiyyə qarşısında məsuliyyət daşıyır və ona hesabat verir.

Bələdiyyə hər ilin yanvar ayının üçüncü həftəsinin bazar ertəsi görülmüş işlər haqqında, o cümlədən maliyyə vəsaitlərinin və bələdiyyə mülkiyyətinin istifadəsi haqqında seçicilərinə hesabat verir. Hesabat yazılı formada tərtib edilir və bələdiyyənin iclaslarında təsdiq edilir. Yerli əhalini tanış etmək məqsədi ilə hesabat bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilir, habelə elan, bülleten, vərəqə, yerli mətbuat, internet saytı və digər vasitələrlə əhaliyə çatdırılır.

Yerli büdcənin layihəsi bələdiyyə iclasına təqdim edildiyi tarixdən 10 gün ərzində yerli əhalinin tanış olması məqsədi ilə dərc edilir. Həmin Qanunun 11-ci maddəsinin 3-cü bəndinə görə bələdiyyələr öz nizamnaməsində müəyyən edilmiş qaydada yerli büdcənin icrası haqqında yarımillik və illik hesabatı bələdiyyə iclasına təqdim edir. Yarımillik maliyyə hesabatları hesabat dövründən sonrakı ayın 15-dək, illik maliyyə hesabatları növbəti ilin yanvarın 30-dək təqdim edilməlidir.

Yerli əhalini tanış etmək məqsədi ilə auditin nəticələri onların bələdiyyəyə təqdim edildiyi gündən bir ay müddətinə bələdiyyə binasının qarşısında xüsusi lövhələrdə yerləşdirilir.

Təcrübədə iri bələdiyyələr yerli KİV-də hesabatlarını dərc edir və büdcələri barədə məlumat

verirlər. Lakin kiçik bələdiyyələr yalnız bu məlumatları bələdiyyələrin inzibati binasında elanlar löhvəsində yerləşdirirlər.

Bəndi üzrə qiymətləndirmə - **3 bal**

7.3 Bələdiyyələrin internetə çıxışının artırılması, bələdiyyələrin internet səhifələrinin açılması və aktiv fəaliyyət göstərməsinin təmin edilməsi

**İcra edir**: Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi
**Tövsiyə edilir:** Bələdiyyələrin milli assosiasiyaları
**İcra müddəti:** 2020–2022-ci illər
**İndikatorlar:** Bələdiyyələrdə rəqəmsal infrastrukturun təkmilləşdirilməsi üzrə tədbirlər

Bələdiyyələrdə rəqəmsal infrastrukturun təkmilləşdirilməsi üzrə tədbirlər çərçivəsində bələdiyyələrin internetə çıxışının artırılması, bələdiyyələrin internet səhifələrinin açılması və aktiv fəaliyyət göstərməsinin təmin edilməsi məqsədilə Bakı şəhərinin yaşayış məntəqələri üzrə bələdiyyələrin internet xidmətlərinə çıxışının yaradılması üçün 2020-2021-ci illər ərzində 2 ədəd 1 Mbit/s, 3 ədəd 2 Mbit/s, 5 ədəd 3 Mbit/s və 4 ədəd 5 Mbit/s sürətli ADSL qoşulması, eləcə də GPON texnologiyası üzrə 5 ədəd 20 Mbit/s və 1 ədəd 50 Mbit/s sürətli qoşulma təmin edilmişdir.

Eyni zamanda,"Aztelekom" MMC-nin xidməti şəbəkəsində internet xidməti ilə təmin olunan bələdiyyələrin internet çıxışının artırılması məqsədilə mövcud tariflərə uyğun fiber optik kabellə yüksək sürətli internet (AİK) xidmətinin göstərilməsi təklif edilmiş və müvafiq təbliğat məlumatlandırma işləri aparılmışdır. Bələdiyyələrin internetə çıxşının artırılması üzrə respublikanın 2 şəhəri (Gəncə və Mingəçevir) üzrə 3 bələdiyyə, 27 rayonu (Abşeron, Ağstafa, Cəlilabad, Hacıqabul, İmişli, Mingəçevir, Neftçala, Oğuz, Qax, Qazax, Qəbələ, Qusar, Sabirabad, Salyan, Samux, Siyəzən, Ucar, Xaçmaz, Zaqatala, Zərdab və Ağsu Ağdam, Beyləqan, Ağdaş, Hacıqabul, İsmayıllı, Lerik) üzrə 47 bələdiyyənin genişzolaqlı internet xidmətinə qoşulması təmin edilmişdir.

Kompüter avadanlığı ilə təmin olunmuş bələdiyyələrin sayı 48%-dən 66%-dək, internetə çıxışı olanların sayı isə 39%-dən 62%-dək artmışdır[81].

İnfrastrukturun olmaması səbəbindən internet xidməti ilə təmin edilməyən yerli bələdiyyələrin internet xidməti ilə gələcəkdə təmin olunması üçün regionların şəbəkəsinin yenidən qurulması lahiyəsində nəzərə alınacaqdır.

***7.3.*** Bəndi üzrə qiymətləndirmə: ***3 bal***

Bələdiyyələrlə iş portalının yaradılması

**İcra edir**: Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi
**Tövsiyə edilir**: Bələdiyyələrin milli assosiasiyaları
**İcra müddəti:** 2020–2022-ci illər
**İndikatorlar:** Bələdiyyələrlə işin səmərəliliyinin artırılması və aşkarlığın təmin edilməsi ilə bağlı tədbirlər

[81] http://belediyye.info/new/details/belediyyelerle-is-portalinin-ilkin-versiyasi-istifadedir-belediyye-idareciliyinin-tekmillesdirilmesi-diqqet-merkezindedir--6281.htm

2020-ci ilin avqust ayından “Bələdiyyələrlə iş portalı”nın ilkin versiyası istifadəyə verilmişdir. Yeni yaradılmış elektron resursda fərdi kabinet vasitəsilə bələdiyyə aktlarının yayımlanması, onların axtarışı, avtomatlaşdırılmış rejimdə statistik hesabatların tərtib edilməsi kimi funksional imkanlar yaradılmış, nazirliyin aidiyyəti qurumları və bələdiyyələr arasında elektron sənəd mübadiləsi o cümlədən bələdiyyə aktlarının inzibati nəzarət orqanına elektron qaydada göndərilməsi təşkil olunmuşdur. Ədliyyə Nazirliyinin rəsmi internet saytında yerləşdirilmiş keçid üzərindən portala daxil olmaq üçün nazirliyin aidiyyəti əməkdaşlarına, habelə zəruri avadanlıq və internetə çıxış imkanı olan bütün bələdiyyələrə istifadəçi adı və şifrələr təqdim olunmuş, portaldan istifadə qaydaları ilə bağlı pandemiya şəraiti nəzərə alınaraq video təlimat hazırlanmışdır.

Portaldan istifadə barədə maarifləndirilmə üçün video təlimat bələdiyyələrə göndərilmişdir. Hazırda Bakı şəhərində fəaliyyət göstərən bələdiyyələrin demək olar ki, hamısı portaldan istifadə edir. Regionlar üzrə isə internetə çıxış imkanı olan bələdiyyələrin portaldan istifadə səviyyəsi müxtəlifdir[82]. Onlarla zəruri metodiki işin davam etdirilməsi üçün regional ədliyyə idarələri tərəfindən tədbirlər görülür.

**7.4.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

## 8-ci istiqamət (Özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 18 bal/100%**

8.1 Kölgə iqtisadiyyatının aradan qaldırılması, sahibkarlıq subyektlərinin fəaliyyətində şəffaflıq, korrupsiyaya qarşı mübarizə və hesabatlılıq tələblərinin gücləndirilməsi ilə bağlı təkliflərin hazırlanması.

**İcra edir**: Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi,
**Tövsiyə edilir:** Baş Prokurorluq
**İcra müddəti:** 2020-2021-ci illər
**İndikatorlar:** Özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması ilə bağlı hazırlanmış təkliflər

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2021-ci ildə “Özəl sektorda antikorrupsiya standartları” adlı vəsait hazırlamış, nəşr etdirmiş və Baş Prokurorluğun saytında yerləşdirmişdir[83].

İqtisadiyyat Nazirliyi tərəfindən “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsi ilə yanaşı, digər normativ hüquqi akt layihələri hazırlanaraq 29.06.2020-ci il tarixli İN-X/O-6540/2020 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir. Aidiyyəti dövlət orqanlarının rəy və təklifləri nəzərə alınmaqla təkmilləşdirilmiş layihələr cari ilin büdcə-vergi siyasəti çərçivəsində 29.07.2021-ci il tarixli İN-X/O-

[82] http://belediyye.info/new/details/belediyyelerle-is-portalinin-ilkin-versiyasi-istifadedir-belediyye-idareciliyinin-tekmillesdirilmesi-diqqet-merkezindedir--6281.htm

[83] https://genprosecutor.gov.az/storage/pages/QaowfAc1YmxbqNhUQyNPFHCsp3Fdb7qiSD5JvKpg.pdf

7081/2021 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir.

Eyni zamanda layihələrlə əlaqədar təqdim edilmiş rəy və təkliflər nəzərə alınmaqla ümumiləşdirilmiş layihələr Maliyyə Nazirliyi ilə qarşılıqlı şəkildə razılaşdırılmış və 2022-ci ilin dövlət büdcəsi layihəsi çərçivəsində büdcə zərfinin tərkibində Maliyyə Nazirliyinin 14.09.2021-ci il tarixli MİHO/1.1-2-2021-3673 nömrəli məktubu ilə Nazirlər Kabinetinə təqdim edilmişdir. “Kiçik və orta sahibkarlığın inkişafı haqqında” Qanun layihəsi hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırılmaq üçün təqdim edilmişdir. Həmin Qanun layihəsində mikro, kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi mikro, kiçik və orta sahibkarlıq subyektlərində korporativ idarəetmə, korrupsiya ilə mübarizə və keyfiyyətin idarə edilməsi standartlarının aşkarlıq və hesabatlılıq prinsipləri əsasında tətbiqi və təşviqi qeyd edilmiş və eyni zamanda həmin subyektlərə dövlət dəstəyinin göstərilməsinin prinsipləri və şərtləri kimi dövlət büdcəsinə, vergilər, icbari tibbi sığorta, işsizlikdən sığorta və ya məcburi dövlət sosial sığorta haqqları üzrə borcların, dəstəyin göstərilməsi üçün müraciət edən şəxs tərəfindən vergidən yayınma sxeminin tətbiqi hallarının olmaması, həmçinin subyektlər tərəfindən mühasibat uçotunun qanunamüvafiq qaydada aparılması müəyyən edilmişdir.

Eyni zamanda, “Ticarət fəaliyyəti haqqında” Qanun layihəsi hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş və həmin layihədə də sahibkarlar tərəfindən ticarət fəaliyyətinin şəffaflıq prinsipləri üzərində təşkilinin təmin edilməsi ilə bağlı müvafiq normalar müəyyən edilmişdir.

***8.1. Bəndi üzrə qiymətləndirmə: 6 bal***

**8.2** Kommersiya və qeyri-kommersiya qurumları üçün antikorrupsiya və etik davranış qaydaları ilə bağlı təlim və treninqlərin keçirilməsi

**İcra edir**: İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Keçirilmiş təlim və treninqlər

2020-ci ilin 29-30 may, 7 oktyabr, 2021-ci ilin 9 fevral, 10 iyun tarixlərində Xaçmaz KOB İnkişaf Mərkəzində, 2020-ci ilin 13 noyabr, 2021-ci ilin 9 fevral tarixlərində Sumqayıt KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 4 fevral, 7 may tarixlərində Şəki KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 19, 23 fevral tarixlərində Yevlax KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 17, 20 sentyabr tarixlərində Ağsu-Kürdəmir KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 24 sentyabr tarixində Göyçay-Ağdaş KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 30 sentyabr tarixində Lənkəran KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 6 oktyabr tarixində Mingəçevir KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 9 oktyabr tarixində Zaqatala-Balakən və KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 9, 14 oktyabr tarixlərində Şamaxı-İsmayıllı KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 16 oktyabr tarixində Masallı-Cəlilabad-Biləsuvar KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 20-23 oktyabr tarixlərində Abşeron KOB İnkişaf Mərkəzində “Antikorrupsiya idarəetmə sistemi” beynəlxalq standartının özəl sektorda tətbiqi ilə bağlı maarifləndirmə, antikorrupsiya və etik davranış qaydalarına dair təlimlər keçirilmişdir.

ECSOFT layihəsi çərçivəsində 2020-2021-ci illərdə Ədliyyə Nazirliyi ilə birlikdə QHT-lər üçün “Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları” mövzusunda bir sıra təlimlər keçirilib.

**8.2.** Bəndi üzrə qiymətləndirmə: ***6 bal***

**8.3** "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartının (İSO 37001 "Anti-bribery Management Sistems") özəl sektorda tətbiqi ilə bağlı maarifləndirmə və dəstək tədbirlərinin həyata keçirilməsi

**İcra edir**: İqtisadiyyat Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Keçirilmiş ictimai maarifləndirmə və dəstək tədbirləri

2020-ci ilin 29-30 may, 7 oktyabr, 2021-ci ilin 9 fevral, 10 iyun tarixlərində Xaçmaz KOB İnkişaf Mərkəzində, 2020-ci ilin 13 noyabr, 2021-ci ilin 9 fevral tarixlərində Sumqayıt KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 4 fevral, 7 may tarixlərində Şəki KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 19, 23 fevral tarixlərində Yevlax KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 17, 20 sentyabr tarixlərində Ağsu-Kürdəmir KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 24 sentyabr tarixində Göyçay-Ağdaş KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 30 sentyabr tarixində Lənkəran KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 6 oktyabr tarixində Mingəçevir KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 9 oktyabr tarixində Zaqatala-Balakən və KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 9, 14 oktyabr tarixlərində Şamaxı-İsmayıllı KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 16 oktyabr tarixində Masallı-Cəlilabad-Biləsuvar KOB İnkişaf Mərkəzində, 2021-ci ilin 20-23 oktyabr tarixlərində Abşeron KOB İnkişaf Mərkəzində "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartının özəl sektorda tətbiqi ilə bağlı maarifləndirmə, antikorrupsiya və etik davranış qaydalarına dair təlimlər keçirilmişdir.

**8.3.** Bəndi üzrə qiymətləndirmə: **6 bal**

## 9- cu istiqamət (Əhaliyə göstərilən kommunal xidmətlərdə şəffaflığın, hesabatlılığın və müştəri məmnunluğunun artırılması sahəsində tədbirlər)

**İstiqamət üzrə qiymətləndirmə: 11 bal/58.33%**

**9.1.** Kommunal xidmətlərin elektronlaşdırılması işinin genişləndirilməsi ilə bağlı təkliflərin hazırlanması və müvafiq tədbirlər görülməsi

**İcraçılar**: Nazirlər Kabineti, Energetika Nazirliyi, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Kommunal xidmətlərin elektronlaşdırılması və bu sahədə səmərəliliyin artırılması sahəsində tədbirlər görülməsi

Müvafiq sahə üzrə fəaliyyət göstərən qurumlarla birlikdə kommunal xidmətlərin elektronlaşdırılması işinin mövcud vəziyyəti təhlil edilmiş və müəyyən edilmişdir ki, "Azərişıq" ASC üzrə 4, "Azərsu" ASC üzrə 2, "Azəriqaz" İB üzrə 14, "Azəristiliktəchizat" ASC üzrə isə 9 növ

xidmətlərin tamamilə elektronlaşdırılması mümkündür.

Belə ki, "Azərişıq" ASC tərəfindən Enerji təchizatı şəbəkəsinə qoşulma üzrə ödənilən qoşulma haqlarının sistemə birbaşa inteqrasiyası, müraciətlərin tamamlanması zamanı "Texniki Şərt", "Qoşulma Aktı" və "Alqı-satqı müqaviləsi"nin email və ya mobil nömrə vasitəsilə (SMS vasitəsilə) vətəndaşa təqdim olunması, habelə istehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi və elektrik təchizatı sistemlərinin layihələndirilməsi, eyni zamanda quraşdırılması işləri üzrə ödənişlərin E-gov üzərindən həyata keçirilməsi xidməti üzrə müvafiq işlər həyata keçirilir.

"Azəriqaz" İstehsalat Birliyi və Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi" MMC arasında müvafiq xidmətlərin göstərilməsi üzrə müqavilə imzalanmış, təklif olunan xidmətlərin Azəriqaz İB-nə məxsus vahid yeni portalda vətəndaşların istifadəsinə verilməsi nəzərdə tutulmuşdur. Layihə üzrə işlər davam etdirilir.

"Azəristiliktəchizat" ASC tərəfindən göstərilən istilik və isti su təchizatı xidmətləri, o cümlədən istilik mənbələrinə qoşulmaq üçün texniki şərtlərin verilməsi xidməti Dövlət xidmətlərinin Elektron Reyestrində qeydiyyata alınmış, eyni zamanda bu xidmətlərin "ASAN Kommunal" mərkəzlərində göstərilməsinə başlanılmışdır. "Azəristiliktəchizat" ASC tərəfindən həyata keçirilən cəmi 13 xidmət növünün 4-ü Cəmiyyətin xidməti fəaliyyət dairəsinə daxil olan məsələlərlə bağlı, istilik və isti su təchizatı xidmətlərinə görə borcun öyrənilməsi, isti su sayğaclarının istismarında yaranmış qüsurun aradan qaldırılması üzrə müraciətlərin və borcun internet vasitəsi ilə ödənilməsi elektronlaşdırılmışdır.

"Azərsu" ASC tərəfindən vətəndaşlara xidmət səviyyəsinin yüksəldilməsi və əlçatanlığın təmin edilməsi məqsədi ilə 2020-ci il 1 sentyabr tarixindən şəxsi kabinet prinsiplərinə əsaslanan müvafiq portal istifadəyə verilmiş və bu portal Azərbaycan Respublikası Prezidentinin yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təqdim etdiyi "Asan Login" vahid qeydiyyat sisteminə inteqrasiya edilmişdir. Elektronlaşdırılması nəzərdə tutulan iki xidmətin ("Texniki şərtin verilməsi" və "Yeni istehlakçının qeydiyyata alınması") "Əhali" istehlakçıları üçün elektronlaşdırılması "Azərsu" ASC tərəfindən yekunlaşdırılaraq vətəndaşların istifadəsinə verilmişdir.

**9.1** Bəndi üzrə qiymətləndirmə: ***4 bal***

**9.2.** Qanunvericilikdə təbii qaz, su və elektrik enerjisi təchizatı qurumları tərəfindən texniki şərtlərin verilməsi ilə əlaqədar normativlərin, eləcə də qüvvədə olan digər texniki norma və tələblərin müasir standartlara uyğunlaşdırılması, müvafiq infrastrukturun yenidən qurulmasına görə ödənişlərin hesablanması və müvafiq işlərin görülməsinin ümumi dəyərinin müəyyən edilməsi ilə bağlı müddəaların təkmilləşdirilməsi.

**İcraçılar:** Nazirlər Kabineti, Energetika Nazirliyi, Ədliyyə Nazirliyi, "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Müvafiq normativ hüquqi aktların qəbul edilməsi

Energetika Nazirliyi tərəfindən "Tikinti obyektlərinin elektrik şəbəkəsinə texnoloji qoşulması və ya əlavə enerji (güc) alması Qaydası" və "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə texnoloji qoşulması və ya əlavə qaz həcmi alması Qaydası" layihələri və uyğunlaşdırılması tələb olunan normativ hüquqi akt layihələri hazırlanaraq razılaşdırılması üçün aidiyyəti dövlət qurumlarına təqdim edilmişdir. Eyni zamanda su təchizatı sahəsi ilə bağlı müvafiq təkliflərin, o cümlədən normativ hüquqi akt

layihələrinin təqdim edilməsi üçün "Azərsu" ASC-yə müraciət olunmuşdur.

Sahibkarların tikinti obyektlərinin kommunal xidmətlərə (elektrik enerjisi və qaz təchizatı şəbəkələrinə) qoşulması prosesinin vahid yanaşma tətbiq olunmaqla elektronlaşdırılması məqsədilə "Bəzi tikinti obyektlərinin elektrik enerjisi (gücü) alması üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə enerji təchizatı şəbəkəsinə qoşulması Qaydası" və "Bəzi tikinti obyektlərinin qaz təchizatı üçün texniki şərtlərin, layihə sənədlərinin hazırlanması və verilməsi, habelə qazpaylayıcı şəbəkəyə qoşulması Qaydası" layihələri, həmçinin sözügedən layihələrin qəbulu ilə əlaqədar uyğunlaşdırılması tələb olunan müvafiq layihələr 26.02.2020-ci il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi hazırlanmış və Nazirlər Kabinetinin 2020-ci il 9 iyun tarixli 198 nömrəli Qərarı ilə təsdiq edilmişdir. COVID-19 pandemiyası səbəbi ilə normativ-hüquqi aktların tələb olunan müddətdə icrası mümkün olmamışdır.

"Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi və uyğunlaşdırılması tələb olunan normativ hüquqi akt layihələri 2021-ci il 1 sentyabr tarixində, "Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi və uyğunlaşdırılması tələb olunan normativ hüquqi akt layihələri hazırlanaraq yuxarı dövlət orqanına təqdim edilmişdir.

**9.2.** ***Bəndi üzrə qiymətləndirmə: 2 bal***

**9.3. Kommunal Xidmətlər Vahid İnformasiya Sistemində kommunal xidmətlərlə bağlı rəy, təklif və şikayətlərin qəbulu bölməsinin yaradılması.**

**İcraçılar:** "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
**İcra müddəti:** 2020-ci il
**İndikatorlar:** Bölmənin yaradılması ilə bağlı görülmüş tədbirlər

Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin operatoru funksiyaları Energetika Nazirliyinə həvalə edilib.

Nazirlikdən sorğuya cavab olaraq bildirilib ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemində kommunal xidmətlərlə bağlı rəy, təklif və şikayətlərin qəbulu bölməsinin yaradılması və Kommunal xidmətlərlə bağlı vahid Çağrı Mərkəzinin yaradılması işləri davam etdirilir. Vahid çağrı mərkəzinin konsepsiyası hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

**9.3.** ***Bəndi üzrə qiymətləndirmə: 2 bal***

**9.4.** Kommunal xidmətlərlə bağlı vahid Çağrı Mərkəzinin yaradılması

**İcraçılar:** “Nazirlər Kabineti, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Energetika Nazirliyi, Maliyyə Nazirliyi
**İcra müddəti:** 2020-2022-ci illər
**İndikatorlar:** Çağrı Mərkəzinin yaradılması ilə bağlı görülmüş tədbirlər

"Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin operatoru funksiyaları Energetika Nazirliyinə həvalə edilib.

Nazirlikdən sorğuya cavab olaraq bildirilib ki, Kommunal Xidmətlər Vahid İnformasiya Sistemində kommunal xidmətlərlə bağlı rəy, təklif və şikayətlərin qəbulu bölməsinin yaradılması və Kommunal xidmətlərlə bağlı vahid Çağrı Mərkəzinin yaradılması işləri davam etdirilir. Vahid çağrı mərkəzinin konsepsiyası hazırlanaraq Nazirlər Kabinetinə təqdim olunmuşdur.

**9.4.** Bəndi üzrə qiymətləndirmə: **3 bal**

**Cədvəl 2. MFP-nin Bəndlər üzrə icrası**

| MFP bəndləri | Maksimum bal | Real bal | İcra faizi % | | MFP bəndləri | Maksimum bal | Real bal | İcra faizi % |
|---|---|---|---|---|---|---|---|---|
| 1-ci istiqamət | 60 | 42 | 70% | | 4-cü istiqamət | 72 | 54 | 75% |
| 1,1 | 6 | 4 | 67% | | 4,1 | 6 | 4 | 67% |
| 1,2 | 6 | 6 | 100% | | 4,2 | 6 | 3 | 50% |
| 1,3 | 6 | 6 | 100% | | 4,3 | 6 | 3 | 50% |
| 1,4 | 6 | 2 | 33% | | 4,4 | 6 | 6 | 100% |
| 1,5 | 6 | 4 | 67% | | 4,5 | 6 | 6 | 100% |
| 1,6 | 6 | 4 | 67% | | 4,6 | 6 | 3 | 50% |
| 1,7 | 6 | 4 | 67% | | 4,7 | 6 | 6 | 100% |
| 1,8 | 6 | 4 | 67% | | 4,8 | 6 | 5 | 83% |
| 1,9 | 6 | 2 | 33% | | 4,9 | 6 | 6 | 100% |
| 1,10 | 6 | 6 | 100% | | 4,10 | 6 | 0 | 83% |
| 2-ci istiqamət | 72 | 57 | 79% | | 4,11 | 6 | 6 | 100% |
| 2,1 | 6 | 6 | 100% | | 4,12 | 6 | 6 | 0% |
| 2,2 | 6 | 0 | 0% | | 5-ci istiqamət | 36 | 27 | 75% |
| 2,3 | 6 | 6 | 100% | | 5,1 | 6 | 6 | 100% |
| 2,4 | 6 | 6 | 100% | | 5,2 | 6 | 4 | 75% |
| 2,5 | 6 | 6 | 100% | | 5,3 | 6 | 3 | 100% |
| 2,6 | 6 | 6 | 100% | | 5,4 | 6 | 3 | 67% |
| 2,7 | 6 | 6 | 100% | | 5,5 | 6 | 5 | 50% |
| 2,8 | 6 | 3 | 50% | | 5,6 | 6 | 6 | 50% |
| 2,9 | 6 | 6 | 100% | | 6-cı istiqamət | 24 | 9 | 38% |
| 2,10 | 6 | 2 | 33% | | 6,1 | 6 | 3 | 50% |
| 2,11 | 6 | 4 | 67% | | 6,2 | 6 | 3 | 50% |
| 2,12 | 6 | 6 | 100% | | 6,3 | 6 | 0 | 0% |
| 3-cü istiqamət | 54 | 51 | 94% | | 6,4 | 6 | 3 | 50% |
| 3,1 | 6 | 5 | 83% | | 7-ci istiqamət | 24 | 13 | 54% |
| 3,2 | 6 | 6 | 100% | | 7,1 | 6 | 1 | 17% |
| 3,3 | 6 | 6 | 100% | | 7,2 | 6 | 3 | 50% |
| 3,4 | 6 | 6 | 100% | | 7,3 | 6 | 3 | 50% |
| 3,5 | 6 | 5 | 83% | | 7,4 | 6 | 6 | 100% |
| 3,6 | 6 | 6 | 100% | | 8-ci istiqamət | 18 | 18 | 100% |
| 3,7 | 6 | 6 | 100% | | 8,1 | 6 | 6 | 100% |
| 3,8 | 6 | 5 | 83% | | 8,2 | 6 | 6 | 100% |
| 3,9 | 6 | 6 | 100% | | 8,3 | 6 | 6 | 100% |
| | | | | | 9-cu istiqamət | 24 | 11 | 46% |
| | | | | | 9,1 | 6 | 4 | 67% |
| | | | | | 9,2 | 6 | 2 | 33% |
| Ortalama icra Faizi | | 73% | | | 9,3 | 6 | 2 | 33% |
| | | | | | 9,4 | 6 | 3 | 50% |

**Cədvəl 3. MFP-nin istiqamətlər üzrə icrası**

| MFP-istiqamətləri | Metodologiya üzrə maksimum bal | Metodologiya üzrə real bal | İcra olunma nisbəti % |
|---|---|---|---|
| Korrupsiyanın qarşısının alınması və Dövlət orqanlarının fəaliyyətində şəffaflığın gücləndirilməsi sahəsində tədbirlər | 60 | 42 | 70 |
| Maliyyə Şəffaflığının təmin edilməsi sahəsində tədbirlər | 72 | 57 | 79 |
| Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində tədbirlər | 54 | 51 | 94 |
| Dövlət xidmətlərinin təkmilləşdirilməsi sahəsində tədbirlər | 72 | 54 | 75 |
| Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişləndirilməsi, ictimai nəzarətin və ictimai iştirakçılığın artırılması sahəsində tədbirlər | 36 | 27 | 75 |
| İnformasiya əldə edilməsinin təmin olunması sahəsində tədbirlər | 24 | 9 | 38 |
| Yerli özünüidarəetmədə hesabatlılığın, aşkarlığın və ictimai iştirakçılığın təmin edilməsi sahəsində tədbirlər | 24 | 13 | 54 |
| Özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması sahəsində tədbirlər | 18 | 18 | 100 |
| Əhaliyə göstərilən kommunal xidmətlərdə şəffaflığın, hesabatlılığın və müştəri məmnunluğunun artırılması sahəsində tədbirlər | 24 | 11 | 46 |

## Ümumiləşdirilmiş nəticələr və tövsiyələr

24 bənd üzrə fəaliyyətlər tam icra edilmiş, 7 bənd üzrə fəaliyyətlər 50%-dan aşağı icra olunmuşdur, 2 bənd üzrə isə fəaliyyətlər icra olunmamışdır. İki istiqamət - 6-cı ("İnformasiya əldə edilməsinin təmin olunması sahəsində tədbirlər") və 9-cu ("Əhaliyə göstərilən kommunal xidmətlərdə şəffaflığın, hesabatlılığın və müştəri məmnunluğunun artırılması sahəsində tədbirlər") istiqamətlər üzrə orta icra göstəricisi 50%-dan aşağı olmuşdur. 8-ci ("Özəl sektorda şəffaflığın və məsuliyyətin artırılması sahəsində tədbirlər") istiqamət üzrə fəaliyyətlər tam icra olunmuşdur.

Nəzərəçarpan irəliləyişlər kimi Ombudsmana müraciətlər üçün vahid qaynar xəttin yaradılmasını, cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin keçirilməsiylə bağlı tədbirləri, elektron notariat və məhkəmə qərarlarının icrası ilə bağlı xidmətlərin elektronlaşmasını, kommunal xidmətlərdə şəffaflığın, hesabatlılığın və müştəri məmnunluğunun artırılmasını, "Ağıllı kənd" layihəsinə start verilməsini və maliyyə şəffaflığının artırılması üzrə fəaliyyətləri qeyd etmək olar.

Həmçinin, bələdiyyələrlə iş portalının yaradılması, elektron hökumət infrastrukturunun təkmilləşdirilməsi, kommunal sektorda müştəri məmnunluğunun artırılması ilə bağlı fəaliyyətlər, ASAN Müraciət sisteminin tətbiqinə başlanması, yerli icra hakimiyyətlərində ASAN İndeksi üzrə qiymətləndirmənin həyata keçirilməsinə başlanılması vətəndaşlar və biznes subyektlərinin dövlət orqanlarının xidmətlərini alması, hesabatlılığın və effektivliyin artırılmasına ciddi töhfə verəcəkdir.

Qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin dövlət qeydiyyatının sadələşdirilməsi, elektronlaşdırılması və təkmilləşdirilməsi, QHT-lərin xarici qrantlara çıxışının asanlaşdırılmasıyla bağlı dövlət orqanları, Açıq Hökumət Platforması və digər QHT-lər tərəfindən təkliflər hazırlanıb. Hökumət bu məsələlərlə bağlı vətəndaş cəmiyyəti ilə müzakirələr aparıb. 2020-ci ildə COVİD-19 pandemiyası və müharibə bu prosesin yekunlaşmasını ləngidib. 01 oktyabrdan etibarın parlament payız sessiyasına başalayıb və bu məsələlərin müzakirəsi, konkret qərarların qəbulu gözlənilir.

İnformasiya açılığının genişləndirilməsi, bu sahədə mövcud qanunvericilik və praktikanın təkmilləşdirilməsi ilə bağlı işlər yekunlaşmayıb. Bu istiqamətdə, qanunvericiliyə əlavə və dəyişikliklərlə bağlı dövlət orqanları müzakirələr aparıb, təkliflər hökumətə təqdim edilib. Bu təkliflər əsasında qanunvericiliyə dəyişikliklər edilməsi və qərarların qəbulu ləngiyir. 2021-ci ilin sonuna qədər bu istiqamətdə hökumət qərarlarının veriləcəyi gözlənilir.

Bunlarla yanaşı özəl sektorda şəffaflığın və hesabatlılığın artırılması, korrupsiya risklərinin müəyyən edilməsinə, təhlilinə və qarşısının alınmasına dair metodologiyanın praktikada tətbiqi ilə bağlı proses də yekunlaşmamış olaraq qalıb. Vətəndaş cəmiyyəti ilə bağlı qanunvericiliyə dəyişikliklər gecikir. Büdcə müzakirələrində vətəndaş cəmiyyətinin iştirakı ilə bağlı öhdəliklər icra olunmur. Açıq hökumət məlumatları ilə bağlı dövlət orqanlarının saytlarında bölmələr yaradılması gecikir.

Risk qiymətləndirilməsi metodologiyasının hazırlanması və tətbiqi ilə bağlı işlər, benefisiar sahibliklə bağlı qanunvericilik islahatları, elektron məlumatlar bazalarının inteqrasiyası sürətləndirilməlidir.

Vəzifəli şəxslərin maliyyə xarakterli məlumatları təqdim etməsi ilə bağlı proses gecikir. Nazirlər Kabinetinin 2020-ci ilə dair hesabatında bildirilib ki, vəzifəli şəxslər tərəfindən müvafiq bəyannamələrin təqdim edilməsi barədə normativ hüquqi akt layihələri hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırılma mərhələsindədir.

MFP ilə nəzərdə tutulan konkret tədbirlərin ayrıca monitorinq edilməsinə ehtiyac var. Dövlət qurumları normativ akatların, həmçinin, normativ-hüquqi akatlarla bağlı yazılı məsləhətləşmələr keçirilməsi praktikasını tətbiq etmirlər. İctimai Şuralar qərarlar, planlar hazırlanması prosesindən bir çox hallarda kənarda qalırlar.

MFP ilə həyata keçirilən tədbilərin korrupsiyaya qarşı mübarizədə təsirini və multipikativ effektinin ölçülməsi üçün tədbilər həyata keçirilməlidir. Korrupsiya riski yüksək olan sahələrdə yeni yanaşma və alətlərin tətbiqi gecikir. Korrupsiyanın səbəbləri, səviyyəsinin öyrənilməsi ilə bağlı fəaliyyətlər kiçik miqyaslıdır. Korrupsiyaya qarşı mübarizədə vətəndaş cəmiyyətinin potensialı zəifləyib.

Monitorinqin nəticələri göstərir ki, Nazirlər Kabineti MFP-də nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı dövlət orqanlarının irəli sürdüyü təkliflərin analizi və bunun əsasında qərarların qəbulu prosesində ləngiyir. Bu istiqamətdə prosesin sürətlənməsi üçün əlavə səylərə ehtiyac var.

Həmçinin, MFP-nin icrasına nəzarəti həyata keçirən Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya Açıq Hökumət Platforması və vətəndaş cəmiyyətinin prioritet hesab etdiyi sahələrdə (informasiya açıqlığı və hesabatlılığın gücləndirilməsi, vətəndaş cəmiyyəti üçün əlverişli mühit yaradılması, korrupsiya risklərinin qiymətləndirilməsi sisteminin yaradılması) fəaliyyələtlərin həyata keçirilməsinin sürətləndirilməsi və qərarların qəbuluna nəzarəti daha da gücləndirməlidir. Həmçinin, bu məsələlərdə ictimai iştirakçılıq daha da genişləndirilməlidir.

MFP-nin icrası ilə əlaqədar iştirakçılıq genişləndirilməsi, MFP üzrə həyata keçirilən tədbirlərin təsrinin ölçülməsi ilə bağlı tədbirlər həyata keçirilməsi, vətəndaş cəmiyyətinin korrupsiyaya qarşı mübarizədə potensialının gücləndirilməsiylə bağlı real addımlar atılması, informasiyanın açıqlanması ilə bağlı əlavə səylər göstərilməsi və daha ciddi tədbirlər görülməsi, korrupsiya riski yüksək olan sahələrdə daha təsirli tədbilər həyata keçirilməsi zəruridir.

Benefisiar sahiblik məlumatlarının açıqlanmasıyla bağlı işlərin sürətləndirilməsi, vəzifəli şəxslərin gəlir deklarasiyaları ilə bağlı qanunvericiliyin tətbiqinin həyata keçirilməsi, maraqların toqquşması haqqında qanunun qəbulu, korrupsiya risklərinin müəyyən edilməsinə, təhlilinə və qarşısının alınmasına dair metodologiyanın tətbiqi prosesinin sürətləndirilməsi prioritet vəzifələr kimi nəzərdən keçirilməlidir.